الله
رسول
محمد



# QURANI RƏHBƏR TUTMAQ

**HARUN YƏHYA (ADNAN OKTAR)**

Quran Allah`ın bizə Özünü tanıtdığı, dünya həyatının gerçək məqsədini, axirəti, gözəl əxlaqın necə olduğunu açıqlayan vəhyidir.

Bir insanın Allah'ın ondan nə istədiyini bilmədən din haqqında şifahi şəkildə eşitdiyi məlumatlara qane olub yaşaması ağıl və vicdana uyğun deyildir. Bir gün öləcəyini və axirətdə sonsuz həyata başlayacağını bilən, cənnət və cəhənnəmin varlığından xəbərdar olan hər insan ağıl və vicdanla düşünüb həyatını necə yaşayacağı haqqında qəti qərar verməlidir. Ağıl və vicdana uyğun olan isə insanın ömrünü Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün keçirməsi və Onun əmrinə tabe olmasıdır.

Bu kitab Quranın Allah'ın sözü və insanlar üçün hidayət rəhbəri olduğunu, dünyadakı hər insana xitab etdiyini, hökmlərinin endirildiyi zamandan bu yana bütün dövrləri əhatə etdiyini, dolayısilə, hər insanın üz tutması gərəkən ən əhəmiyyətli qaynaq olduğunu açıqlamaq məqsədilə hazırlanmışdır. Bu mövzunun bütün insanlara çatdırılması isə ağıllı, vicdanlı və sağlam düşüncəli  hər müsəlmanın ən önəmli vəzifələrindən biridir. Bir insan yaşından asılı olmayaraq, heç bir zaman Quranı oxuyub anlaması və içində yazılanlara əməl etməsi üçün gec qalmış sayılmaz. Bir insan qəti olaraq tövbə edib xətasını təkrarlamaqdan çəkinərsə və Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün yaşamağa başlayarsa, Allah'dan keçmiş günahları üçün etdiyi tövbəsinin  qəbul etməsini uma bilər.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد





# QURANI RƏHBƏR TUTMAQ

Harun Yəhya (Adnan Oktar)



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi
Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR


Giriş ....................................................................................8

Quranı Allah qoruyur .........................................................11

Tək hökm verən Allah'dır....................................................16

Allah adına hökm verənlər ...................................................21

Quranı rəhbər tutmaq ...........................................................26

Quran aləmlərə öyüddür .......................................................29

Quran Furqandır; doğrunu yanlışdan ayırır ..........................32

Quranda hər şey açıqlanmışdır ..............................................35

Quran əxlaqını yaşamaq çox asandır .....................................39

Qurana tabe olmaq insanların üzərindəki yükü qaldırır .............42

Allah insanları Quranla xəbərdar edib qorxudur .........................46

Möminlər Quran əxlaqını nöqsansız yaşayırlar...........................50

Hz. Muhəmmədin (səv) tək rəhbəri Quran idi.............................52

Nümunəvi Quran nəsli yetişdirməyin əhəmiyyəti .......................55

Nəticə....................................................................................59

Təkamül yalanı ......................................................................61

# GİRİŞ

Din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə yanlış bir din anlayışı hakimdir. Belə cəmiyyətlərdə yetişən insanlar dini sadəcə şifahi məlumatlarla öyrənir, Allah'ı və Allah'ın əmr etdiyi gözəl əxlaqı tanımırlar. Buna görə, hər kəsin din adına fərqli tətbiqləri, qanunları və bir-birinə bənzəməyən doğru və yanlışları olur. Halbuki, gerçək dinin öyrənilməsinin əsas qaynağı Quran və Peyğəmbərimizin (səv) sünnəsidir. Quran bütün kainatı yoxdan var edən, hər şeyin ən doğrusunu bilən Allah'ın sözüdür.

Quran hər insanın başa düşəcəyi sadə və anlaşılan üsluba, bənzərsiz hikmətə sahibdir. Buna baxmayaraq, Allah'a və dinə qarşı səmimiyyətsiz olan, hətta düşmən kimi yanaşan bəzi insanlar Qurana ön mühakimə ilə yanaşır, yanlış məntiq səbəbi ilə ayələri doğru şərh etmirlər. Bəziləri də dini qəsdən çətin göstərmək üçün özlərindən bir çox batil inanc, bidət və xurafat çıxarırlar. Quranı bilən və Peyğəmbərimizin (səv) həyatını tanıyan iman sahibləri isə bunların xurafat olduğunu anlayır və heç birinə etibar etmirlər. Lakin Allah'ı və Quranı tanımayanlar cahillikləri üzündən bu xurafatların təsirində qalır, Qurana əsaslanmayan bu batil dini yanlış olaraq gerçək din zənn edirlər. Quran və hədisləri oxumadıqlarına görə də Allah'ın bəyənib seçdiyi dinin gözəlliklərini görmürlər.

Allah'ın bütün insanlara hidayət olaraq endirdiyi Qurandakı yazılar bu xətalı yolu izləyənlərin böyük qismini heç maraqlandırmır. Dinlə əlaqədar hər hansı bir mövzunu öyrənmək istədikdə Allah'ın qiyamətə qədər etibarlı etdiyi Qurandan kənar bir çox yanlış qaynağa

baş vurur, lakin Quranı oxumurlar. Bu vəziyyət Quranda **“Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!” (Furqan surəsi, 30)** ayəsi ilə ifadə edilir. Halbuki, dinin mənbəyi Quran ayələri və Quranda əmr edilənləri ən gözəl şəkildə tətbiq edən Peyğəmbərimizin (səv) sünnəsi, yəni sözləri, davranışları və hər cür işləridir. Allah Quranı insanların oxuyub anlaması, içində yazılanları öyrənməsi, bütün kainatı yoxdan var edən Rəbbimizi tanıması və Ona necə qulluq edəcəyini bilib çəkinməsi üçün göndərmişdir. Ayələrini hər növ örnək və qissələrlə bir-bir və müxtəlif cür açıqlamışdır. Allah’ın **“...Biz kitabda heç bir şeyi nəzərdən qaçırmadıq...” (Ənam surəsi, 38)** ayəsində bildirdiyi kimi, Quran nöqsansızdır. İstər dünya həyatı, istərsə də ölümdən sonrakı həyatla əlaqədar bir çox şey Quranda ən hikmətli şəkildə açıqlanmışdır. Allah **“Sizə sizləri xatırladan bir kitab nazil etdik. Məgər başa düşmürsünüz?” (Ənbiya surəsi, 10)** ayəsi ilə bizlərə bu həqiqəti bildirir.

Bu kitab Quranın Allah’ın sözü və insanlar üçün hidayət rəhbəri olduğunu, dünyadakı hər insana xitab etdiyini, hökmlərinin endirildiyi zamandan bu yana bütün dövrləri əhatə etdiyini, dolayısilə, hər insanın üz tutması gərəkən ən əhəmiyyətli qaynaq olduğunu açıqlamaq məqsədilə hazırlanmışdır.

İslam dininin doğru öyrənilməsi və Quran ayələrinin lazımi şəkildə qavranılması insanların düz yolu tapmaları üçün çox zəruridir. Bu mövzunun bütün insanlara çatdırılması isə ağıllı, vicdanlı və sağlam düşüncəli hər müsəlmanın ən önəmli vəzifələrindən biridir.

## QURANİ-KƏRİM HAQQ KİTABDIR

**Adnan Oktar:** *Üç din yaradıb cənabi-Allah. Musəvilik, İsəvilik və Muhəmmədilik. Muhəmmədi din, yəni İslam dini haqq dindir. Bu da imtahanın bir şərtidir. Bu quruluş içində bu da görünür. İncil, yəni*

*səmimi deyirəm, baxan kimi təhrif olduğu görünür. Təslis inancı, yəni bir insana Allah deyilməsi çox böyük zülmdür. Böyük zülmdür və xristianlara qarşı oyun oynanılmışdır. Musəvilikdə də axirət inancı çox çıxarılmışdır. Buna baxmayaraq, bir az qalıb, amma çox çıxarılıb.*

**Aparıcı:** *Kitablar dəyişdirilibmi?*

**Adnan Oktar:** *Çox dəyişdiriblər. Yəni onsuz da inkar etmirlər. "Bəli", -deyirlər. Lakin haqq olan qisimlər var təbii ki, onlar pozulmadan qalıblar. Onsuz da biz o qalanları kitab halına saldıq. Toplu şəkildə bir araya gətiririk, yəni Quranla uyğun olan yerləri. Quran açıq şəkildə həqiqətdir. İndi burada bunun o qədər uzatmağa yönü yoxdur. Hər vicdan, hər səmimi vicdan Quranı o dəqiqə anlar. Başa düşülməyən yönü yoxdur. Bu, çox böyük nemətdir, Allah'a şükür. Məsələn, baxın, axirəti biz bilməyəcəkdik və incəliklərindən xəbərimiz olmayacaqdı. Tövrata görə bilməyəcəkdik, İncildə də axirətin incəlikləri çox az vardır. Çox az. Çox zəif izahlar var. Quran son dərəcə səhhətli və düzgündür. Cənabi-Allah Quranda lap gözəl anlatmışdır. Allah'ın varlığı və Quran çox dəqiqdir, yəni o mövzuda insanların qərarsız olacağı kimi deyil. (Adnan Oktarın 13 mart, 2010 tarixli www.harunyahya.tv reportajından)*

# QURANI ALLAH QORUYUR

Quranın ən önəmli xüsusiyyətlərindən biri dövrümüzə qədər heç bir dəyişikliyə məruz qalmadan, Peyğəmbərimizə (səv) vəhy edildiyi halı ilə bizə çatmasıdır. Allah bunu Quranda **"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!" (Hicr surəsi, 9)** ayəsi ilə vəd etmişdir.

Bilindiyi kimi, Qurandan əvvəlki haqq kitabların orijinal halı qorunmamışdır, bəzi yerlərdə məqsədli şəkildə və ya cahilliklə təhrif edilmişdir. Bu kitablara bəzi əlavələr edilmiş, bəzi yerləri dəyişdirilmiş və ya tamamilə çıxarılmışdır. Peyğəmbərimiz (səv) isə özünə hər vəhy gəldiyində onu Allah'ın köməyi ilə əzbərləmiş və həmin an güvəndiyi şəxslərə yazdırmışdır. Beləcə, Quran yazılı halda qorunmuşdur. Hz. Əbubəkr (rə) dövründə Quran tək bir nüsxə halına salınmış, hz. Osman (rə) dövründə isə Quran nüsxələri çoxaldılıb əhəmiyyətli İslam bölgələrinə göndərilmişdir.

Peyğəmbərimiz (səv) vəhy gəldikdə Quran ayələrini yadda saxlamaq üçün necə çalışdığı və buna görə Allah'ın ona necə kömək etdiyi ayələrdə belə açıqlanır:

> **Onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə! Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir. Biz onu oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə. Sonra onu bəyan etmək də Bizə aiddir! (Qiyamət surəsi 16-19)**

Ayələrdən də göründüyü kimi, Peyğəmbərimizin (səv) Quranı

yadda saxlaması hər hansı bir mövzunu əzbərləmək kimi olmamış, Allah xüsusi şəkildə Quran ayələrini Peyğəmbərimizin (səv) hafizəsinə yerləşdirmişdir. Bundan sonra, Peyğəmbərimiz (səv) yadda saxladığı ayələri güvəndiyi şəxslərə yazdırmışdır. Beləliklə, 1400 ildir ki, Allah'ın vədinə uyğun olaraq Quranın tək bir hərfi belə dəyişməmiş və Allah'ın vəhyi günümüzə qədər qorunaraq gəlmişdir. (www.Allahinsonsuzgucu.com)

Quranın Allah'ın vəhyi olduğunun və buna insanın heç bir şey əlavə etmədiyinin dəlillərindən biri Quranda heç bir ziddiyyətin olmamasıdır. Quran həm öz daxilində, həm də tarixi inkişaf və elmi tapıntılarla tam uyğunluq təşkil edir. Quranın bu xüsusiyyəti o qədər dəqiq və açıqdır ki, Rəbbimiz bir ayəsində belə buyurmuşdur:

**Onlar Quran barəsində düşünməzlərmi? Əgər o, Allah'dan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)**

İnsanların yazdığı kitablarda bir çox ziddiyyətlər tapmaq mümkündür. Məsələn, elmi bir kitabda əvvəldə verilən bir məlumat sonda verilən məlumatla uyğun olmaya bilər. Quranın isə hər sözü bir-birinə uyğundur və ayələrdə kiçik də olsa ziddiyyət yoxdur. Bundan başqa, Quranda cəmiyyətlər, idarə üsulu, hərbi strategiya kimi bir çox mövzuda məlumat verilir, sadəcə keçmişdən deyil, gələcəkdəki hadisələrdən də xəbər verilir. Bu məlumatların hamısı tarixi həqiqətlərlə və eyni zamanda, Quranın vəhyindən sonra meydana gələn hadisələrlə tam uyğunluq təşkil edir. Məsələn, Quranda gələcəklə bağlı verilən xəbərlərdən biri "Rum" surəsinin ilk ayələrində yer almışdır. Bu ayələrdə Bizans İmperiyasının məğlub olduğu, lakin qısa bir vaxtda təkrar qalib gələcəyi belə bildirilmişdir:

**Əlif, Lam, Mim! Rumlular məğlub oldular. Ən aşağı bir yerdə. Lakin onlar məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində (üç illə doqquz, yaxud on il arasında). Əvvəl də, sonra da hökm Allah'ındır. O gün möminlər sevinəcəklər. (Rum surəsi, 1-4)**

Bu ayələr xristian bizanslıların bütpərəst farslar tərəfindən ağır məğlubiyyətə uğramasından təqribən 7 il sonra (miladi 620) endirilmişdir. Ayələrdə Rum olaraq keçən Bizansın çox yaxında qalib gələcəyi xəbər verilmişdir. Halbuki, həmin vaxtlar Bizans o qədər gücdən düşmüşdü ki, qalib gəlməsi bir yana, mövcudluğunu qoruması belə imkansız görünürdü.

Qısası, hamının Bizansın yox olmasının gözlədiyi bir zamanda "Rum" surəsinin ilk ayələri vəhy edilmiş və Bizansın 9 il keçmədən yenidən qalib gələcəyi xəbər verilmişdir.

"Rum" surəsinin ilk ayələrinin endirilməsindən təxminən 7 il sonra, miladi 627-ci ilin dekabr ayında Bizans və Fars imperiyaları arasında Ninova xarabalıqları yaxınlığında böyük döyüş baş verdi. Bu dəfə Bizans ordusu farsları məğlub etdi. Bir neçə ay sonra farslar işğal etdiyi yerləri Bizansa geri qaytarmaq haqqında saziş bağlamağa məcbur oldular.

Beləliklə, Quranda gələcəyə dair verilən bu xəbər gerçəkləşdi. Burada verilən təkcə bu misal belə, Quranın Allah'ın sözü olduğunun və insan əli ilə yazılmadığının bir sübutudur.

Quranın bir başqa xüsusiyyəti də astronomik və bioloji mövzularda verdiyi məlumatların o dövrün zəif elmi anlayışından və batil inanclarından tamamilə fərqli olmasıdır. Məsələn, Quranın vəhy edildiyi dövrdə ərəb cəmiyyətində göy üzünü dağların tutub saxladığına inanırdılar. Dünyanın düz olduğunu və yer üzünün hər iki ucunda yer aldığı qəbul edilən yüksək dağların göy üzünə bünövrə təşkil etdiyini zənn edirdilər. Halbuki, Allah Quranda insanlara bu batil inancların gerçək olmadığını bildirmiş və belə buyurmuşdur:

**Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan... (Rəd surəsi, 2)**

Bundan başqa, Quranın əlavə bir çox ayəsində xəbər verilən elmi həqiqətlər 20 və 21-ci əsr elmi tərəfindən yeni bilinən məlumatlarla paralellik təşkil edir. Bunlar Quranın Allah'ın sözü olduğunu göstərən dəlillərdən bəziləridir.

Quranın ədəbi yönü də son dərəcə üstünlüyə malikdir. Quran endirildiyi dövrdə ərəb şairləri bir-biri ilə yarışıb gözəl sözlər deyir, ortaya təsirli ədəbi əsərlər çıxarırdılar. Ancaq onlar da Quranın üslubunun gözəlliyinə heyran olmuşdular və bu müqəddəs kitabın ədəbi ehtişamını qəbul etmişdilər.

Bununla yanaşı, Quranda qüsursuz riyazi şifrə sistemi də vardır. Məsələn, bəzi kəlmələr Quranda mənaları ilə əlaqəli sayılar qədər təkrarlanır. "Gün" kəlməsi bütün Quranda 365 dəfə keçir. "Günlər" 30, "ay" kəlməsi isə 12 dəfə keçir. "Şeytan" və "mələk" kəlmələri 88 dəfə, "dünya" və "axirət" kəlmələri 115 dəfə, "yay-isti" və "qış-soyuq" kəlmələri 5 dəfə təkrarlanır. "Cəzalandırmaq" 117 dəfə, "əfv etmək" isə 234 (117x2) dəfə keçir. "Günəş (şəms)" və "işıq (nur)" kəlmələri Quranda 33 dəfə keçir. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, "Quran möcüzələri")

Burada qısa xülasəsini verdiyimiz bütün bu həqiqətlər Quranın insan sözü olmadığını qəti olaraq təsdiq edən dəlillərdəndir. Quran Allah'ın, Rəsulu hz. Muhəmmədə (səv) endirdiyi vəhyidir və endiyi gündən etibarən heç dəyişmədən bizlərə gəlib çatmışdır. (www.Kurandancevaplar.com)

Allah Quranın bu üstün xüsusiyyətini ayələrində belə bildirir:

**Əgər bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allah'dan savayı şahidlərinizi çağırın! Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda, kafirlər üçün hazırlanmış, yanacağı insanlardan və kibrit daşlarından ibarət olan oddan həzər edin! (Bəqərə surəsi, 23-24)**

**De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər. (İsra surəsi, 88)**

## QURANIN NURU ZEHİNLƏRİ HƏR CÜR PİSLİKDƏN TƏMİZLƏR

**Adnan Oktar:** *Doğrudur, mən gənclərin beynini yuyuram. Yəni bütün millətimin beynini yumağa çalışıram, çünki* ***Quranın bir xüsusiyyətidir, yəni tahir edər insanları, pislikdən təmizlər. Quran yuyucudur, gözəl ətirli sabun kimidir bir yönü ilə. Onun dəydiyi yerdə kir qalmaz, kiri aparar Quran, tər-təmiz edər. Həm də büllur kimi sudur; insanın üzərinə tökdüyündə onda heç bir kir qalmaz, heç bir şey qalmaz. QURANIN İŞIĞI BİR SU KİMİDİR, NURANİ BİR SU KİMİDİR.*** *İnsanı yuyub tər-təmiz edər. Təbii ki, beyinlər yuyulacaq,* ***çünki beyinlər axırzamanda kirləniblər, qəflət və dəlalət kirinə bulaşıblar, bir qismi də küfrə bulaşıb. Darvinizm, materializm, kommunizm, satanizm kimi kirli zehniyyətlər insanların beynini kirlədib.*** *Təbii ki, bunlar yuyulmalıdır.* ***Beyin yuyulanda tər-təmiz olur, nur saçmağa başlar. Quranın nurani suyu ilə insanlar həmişə yuyunar və tər-təmiz olarlar. O nur kiri bir anda kənara atar, yox edər. Eyni zamanda, bir işıqdır Quran.*** *(Adnan Oktarın Tempo TV reportajından, 10 mart, 2009)*

**Adnan Oktar:** *Mən Quranın nuru ilə insanların beynini yuyuram. Beynindəki kirləri, pislik və rəzillikləri. Gözəl ətirli sabun kimidir Quran. Ənbər qoxulu sabun kimidir. Bununla beyindəki bütün pislər, qaralar, kirlər və s. tökülüb gedər. Mən beyin yuyanam. Peyğəmbərimiz (səv) də beyin yuyurdu. Bütün peyğəmbərlər beyin yudular.*

***Quran birbaşa özü yuyucudur, təmizləyicidir, tahirdir. Bizim vəzifəmiz onsuz da tahirlikdir. Təmizləməkdir. Beyindəki kirləri, pislikləri təmizləməklə mükəlləfik. Allah'ın o əmri bizədir, bu, bizim üçün şərəfdir. Haqq və həqiqəti beyinlərə yerləşdiririk. Gözəlliyi, sevgini, mərhəməti, şəfqəti, ədaləti, hörməti, dərin düşünməyi, şiddətli Allah qorxusunu, şiddətli Allah sevgisini, Quran eşqini, Allah eşqini, səhabə eşqini, axirətə olan sevgimizi, cənnətə olan sevgimizi, cəhənnəmdən qorxumuzu artırırıq, bunları bildiririk.*** *Kommunist pisliklərini, faşist pisliklərini, materialist-darvinist pislikləri, nə qədər rəzillik varsa... Nur kimi bir sabundur, eyni zamanda, Quran təmizləyicidir. O ətirli sabunla tərtəmiz yuyuruq, inşaAllah. (Adnan Oktarın Destan TV reportajından, 8 mart, 2009)*

# TƏK HÖKM VERƏN ALLAH'DIR

İman edənlər üçün tək yol göstərici Allah'ın elçiləri və Allah'ın sözü olan Qurandır. Quranda inananların: **"Allah hər şeyin Rəbbi olduğu halda, heç mən Ondan başqa Rəbmi istərəm?" (Ənam surəsi, 164)** –dedikləri bildirilir.

İnkar edənlər isə özlərinə Allah'dan başqa səhv yol göstəricilər tapıb, fərqli şəxsləri nümunə götürüb və batil fikirləri izləyib çox yanlış düşüncə içində yaşayırlar. Lakin ölümdən sonra sonsuz cəhənnəm əzabını gördüklərində bu böyük xətalarını ayədə xəbər verildiyi kimi: **"...Ey Rəbbimiz! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar..." (Əhzab surəsi, 67)** –deyərək etiraf edəcək və peşman olduqlarını bildirəcəklər.

Axirətdə görəcəkləri bu həqiqəti dünyada görməzlikdən gələnlərin bir çoxunun hərəkətlərini müəyyən edən amil yaşadıqları cəmiyyətin haqqa əsaslanmayan ümumi mühakimələri və bəzi batil adət-ənənələridir. Bu insanlar babalarının, çevrələrinin və cəmiyyətin bəzi öndərlərinin yanlış əməllərini örnək alıb yuxarıdakı ayədə də bildirildiyi kimi, yoldan azırlar. Halbuki, Qurana uyğun olmayan hər düşüncə və hər hərəkət yanlışdır.

İman edənlər isə həmişə və hər yerdə Allah'ın əmrinə görə hərəkət edir, Quranda qadağan edilən hər düşüncədən və hər əməldən uzaq dururlar. Hər hansı bir işi görərkən və ya qərar verərkən o mövzuda Allah'ın əmrini düşünür, dərhal Qurana və Peyğəmbərimizin (səv) sünnəsinə baş vururlar. Öz istəklərinə, cəmiyyətin batil ənənələrinə və ya babalarının haqqa əsaslanmayan adətlərinə görə

deyil, yalnız Allah'ın əmrinə görə hərəkət edirlər. Necə ki, Allah Quranda inananlara belə əmr edir:

**Bu nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun və Allah'dan qorxun ki, bəlkə, sizə rəhm edilsin! (Ənam surəsi, 155)**

Allah'ı tək hökm verici olaraq qəbul etməyən, Allah'ın hökmlərinə qarşı çıxan və ya Onun əmrlərindən kənar hökm çıxaran insanlar yoldan azmış olurlar. Bu insanlar böyük cəhalətlə cəmiyyətdə geniş yayılmış qayda və qanunları Allah'ın hökmlərindən üstün tuturlar. Üstəlik, bu mövzuda çox inadcıl olurlar. Doğru olanı vicdanları qəbul etsə də, kibirli və xurafatçı olduqlarına görə, ən gözəl və ən doğru olan hökmü qəbul etmirlər. Allah Quranda bu insanlar haqqında belə buyurur:

**Onlara: "Allah'ın göndərdiyinə tabe olun!" –deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" –deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə? (Bəqərə surəsi, 170)**

**Biz səndən əvvəl hər hansı bir məmləkətə qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan böyükləri sadəcə olaraq: "Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getməkdəyik!" – dedilər. (Hər peyğəmbər öz ümmətinə) belə dedi: "Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!" Onlar: "Biz sizinlə göndərilənləri inkar edirik!" – deyə cavab verdilər. (Zuxruf surəsi, 23-24)**

Bəzi insanların sahib olduğu bu yanlış düşüncə Allah'ın dinini qəbul etmələrinə və iman etmələrinə əngəl olmuşdur. Məsələn, hz. Musa (əs) və qardaşı hz. Harun (əs) qövmlərini bir olan Allah'a ibadət və qulluq etməyə çağırdıqlarında firon və öndə gələnləri ayədə xəbər verildiyi kimi: **"Bizi atalarımızın tapındığı dindən**

**döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz? Biz sizə iman gətirən deyilik!" (Yunis surəsi, 78)** –deyə cavab vermişdir.

Hz. Şueybə (əs) də xalqının: **"Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?" (Hud surəsi, 87)** –deyərək ağılsızlıqla üsyan etdiyi ayədə bildirilir. Bu ayələrdən göründüyü kimi, peyğəmbərlər Allah'ın hökmlərini bildirdikdə həmin insanlardan həmişə "sənin dediklərin atalarımızın və babalarımızın yoluna ziddir, ona görə də onu qəbul etmərik" kimi cavablar almışlar. İnsanlar elçilərin təbliğinə hər dövrdə inkar və düşmənliklə qarşılıq vermiş, tutduqları yolu tərk etməmişlər. Halbuki, bütün peyğəmbərlər insanları dini yalnız Allah'a həsr edib ibadət etməyə dəvət etmişdir.

Peyğəmbərimiz hz. Muhəmməd (səv) də insanları tam olaraq Allah'a yönəlməyə və Onun hökmlərinə əməl etməyə dəvət etmişdir. Quran ayələrində insanların axirətdə Allah'ın hökmləri əsasında sorğu-sual ediləcəyi bildirilmişdir. Allah Quranda Özünə şərik qoşanları və onların hökmləri əsasında özlərinə yeni və azğın bir din çıxaranları belə xəbərdar edir:

> **Yoxsa Allah'ın dində izin vermədiyi bir şeyi onlar üçün qanuni edən şərikləri vardır. Əgər qəti söz olmasaydı, aralarında hökm artıq icra edilmiş olardı. Şübhəsiz ki, zalımları şiddətli bir əzab gözləyir! (Şura surəsi, 21)**

Rəbbimiz başqa bir ayədə belə buyurur:

> **Məgər oxunmaqda olan kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi? Həqiqətən, bunda iman gətirən bir tayfa üçün həm mərhəmət, həm də öyüd-nəsihət vardır! (Ənkəbut surəsi, 51)**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, elçilərin dəvətinə tabe olmayanların bir qismi öz batil dinləri adına ortaya çıxır və kəmağıllıqları ucbatından peyğəmbərləri dinlərini pozmaqda ittiham

edirlər. Yaxud daha da ağılsızlıq edib Allah'ın və elçisinin dediklərini əsaslı görməyib başqa din uydururlar. Şübhəsiz ki, bu, böyük bir zülm və çox çirkin bir davranışdır. Halbuki, "Ənkəbut" surəsində də bildirildiyi kimi, Allah'ın endirdiyi kitab insanlara kifayətdir.

İman edən bir insana bütün insanların necə bir inanca malik olması və ya dinlərinə necə əməl etməsi əhəmiyyətli deyildir. Önəmli olan Allah'ın Quranda insanlara bildirdikləri və Peyğəmbərimizin (səv) sünnəsidir. Quran endirildiyi dövrdə Allah insanların bir çoxunun batil inanc və əməllərini ortadan qaldırmışdır. Peyğəmbərimiz də (səv) insanların söylədiklərinə, iftiralarına və düşmən rəftarlarına əhəmiyyət verməmiş, Allah'a və Qurana bağlı qalmışdır. (www.Kuranahlaki.com)

Dövrümüzdə də iman edənlər Allah'a, Qurana və Peyğəmbərimizin (səv) sünnəsinə bağlanmalı, Allah'ın Quranda bildirdiklərindən ayrı bir yol axtarmamalıdır.

## Əksəriyyətin əməlləri çox vaxt yanlış olur

Allah'ın hökmlərini görməzlikdən gələn və cəmiyyətin çoxluğunu təşkil edən din əxlaqından uzaq çevrəyə bağlı insanların ən böyük səhvlərindən biri əksəriyyətin həmişə doğru olanları təmsil etdiyini zənn etməsidir. Halbuki, Allah insanların bir çoxunun doğru yolda olmayacağını Quranda bildirmişdir. Allah Quranda **"Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allah'ın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar!" (Ənam surəsi, 116)** şəklində buyurur. Yəni əksəriyyətin gəldiyi qərarlar əgər Qurana uyğun deyilsə, heç bir şəkildə doğruların inikası ola bilməz. Minlərlə, yüz minlərlə, hətta yüz milyonlarla insan eyni düşünsələr də, bu, o düşüncənin doğru olduğunu göstərməz. Yuxarıdakı ayədə də Allah insanların çoxunun hökm verərkən yalnız zənn və təxminlərə əsaslandığını və bir çox insanı doğru yoldan azdırdığını büruzə verir.

Əksəriyyətin aldığı qərarlara güvənib Allah'ın əmrini tərk etmək

insanları dünya və axirətdə böyük itkiyə sürükləyir. Bu insanlar Allah'ın **"...Onlar özlərinə ziyan etdilər. Uyduqları (şeylər də) onlardan uzaqlaşıb qeyb oldu" (Əraf surəsi, 53)** ayəsində bildirdiyi kimi, tək-tənha qalmışlar. Allah'ın endirdiyini öz uydurduqları ilə dəyişdirənlərin axirətdə hüsrana uğrayacağı ayələrdə belə bildirilir:

**Allah'a iftira yaxandan daha zalım kim ola bilər? Onlar Allah'ın hüzuruna gətirilər, şahidlər belə deyərlər: "Bunlar Rəbbi barəsində yalan söyləyənlərdir!" Bilin ki, zalımlar Allah'ın lənətinə gələcəklər! (Hud surəsi, 18)**

**Allah'a qarşı yalan uydurub düzəldən, özünə haqq gəldikdə onu təkzib edən kəsdən daha zalım kim ola bilər?! Məgər kafirlər üçün cəhənnəmdə yer yoxdur? (Ənkəbut surəsi, 68)**

Möminlər isə Allah'ın hökmlərinə qəlbən təslim olurlar. Onların bu gözəl əxlaqı ayələrdə belə açıqlanmışdır:

**...Rəbbimiz elm ilə hər şeyi ehtiva etmişdir. Biz yalnız Allah'a təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan! (Əraf surəsi, 89)**

**...Mən Allah'ın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allah'ındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər! (Yusif surəsi, 67)**

**De: "Ey göyləri və yeri yoxdan yaradan, ey gizlini və aşkarı bilən Allah! Bəndələrin arasında ixtilafda olduqları barəsində Sən hökm edəcəksən! (Zumər surəsi, 46)**

# ALLAH ADINA HÖKM VERƏNLƏR

Əvvəlki hissələrdə də üzərində dayandığımız kimi, bir qrup insanlar özlərindən dində olmayan batil hökmlər, halal və haramlar çıxarır, Allah'ın Quranda halal buyurduğuna haram, haram dediyinə də halal deyirlər. Peyğəmbərimizin (səv) sünnəsini isə tamamilə görməzlikdən gəlirlər. Bunu etməklə dini əslindən döndərməyə çalışır, özünə xas inanc və əməlləri olan batil bir din meydana gətirirlər. Allah'ın endirdiyi haqq dini bilməyən, Quran ayələrindən və Peyğəmbərimiz hz. Muhəmmədin həyatından xəbərdar olmayan insanlar isə bunun batil bir din olduğunun fərqində olmurlar. Bu şəxslərin təlqinlərinə aldanır və düşünmədən onların ardınca gedirlər. Beləliklə, Allah adına hökm verənlər özləri ilə yanaşı, böyük kütləni də günah və üsyana sürükləmiş olurlar. Allah bu şəxslərin durumunu "Ali-İmran" surəsində bu şəkildə bildirir:

**Onlardan bir zümrə də vardır ki, siz onların oxuduqlarını hesab edəsiniz deyə, kitab oxuyan zaman dillərini o tərəf-bu tərəfə əyirlər. Halbuki, onların bu oxuduqları kitabdan deyildir. Onlar isə: "Bunlar Allah tərəfindəndir", -dedilər. Bunlar isə heç də Allah tərəfindən deyildir. Söylədikləri Allah dərgahından olmadığı halda: "Bu, Allah dərgahındandır", - deyirlər. Onlar bilə-bilə Allah'a qarşı yalan söyləyirlər.**

Quranda bütün xüsusiyyətləri ilə açıqlanan haqq dini özlərinə

ölçü götürməyən və atalarından qalma batil inancları israrla sürdürmək istəyən bəzi cəmiyyətlər daha da irəli gedib Allah'a qarşı çirkin iftiralar atırlar. Belə kimsələr ağıl və vicdanlarını bir kənara qoyub Allah'ı gərəyi kimi təqdir etmədiklərinə görə, doğru olanı tapacaq anlayışa da sahib olmurlar. Bu səbəbdən, Quran əxlaqına uyğun olmayan bir çox batil inanc çıxarır və təkcə özlərini deyil, cahil kütlələri də batil əməllərə yönəldirlər. Halalı haram, haramı da halal edir, yalan yerə iftira yaxırlar. Bu mövzu ilə əlaqədar bəzi ayələr bunlardır:

**Öz iddialarına əsasən: "Bu davarlar və əkinlər haramdır, onları bizim istədiklərimizdən başqa heç kəs yeyə bilməz. Bunlar da minilməsi qadağan edilmiş heyvanlardır" dedilər. Elə heyvanlar da vardır ki, (kəsərkən) Allah'ın adını çəkməzlər. Bütün bunları Allah'a iftira yaxaraq edərlər. Yaxdıqları iftiraya görə (Allah) onların cəzalarını verəcəkdir. Həmçinin: "Bu heyvanların qarınlarındakı balalar yalnız kişilərə məxsusdur, onlar qadınlarımıza haram edilmişdir", - dedilər. Əgər ölü doğularsa, ona ortaqdırlar. (Allah) onlara vəsflərinin cəzasını verəcəkdir. Şübhəsiz ki, O, hikmət, elm sahibidir! (Ənam surəsi, 138-139)**

**...Allah'ın onlara verdiyi ruzini Allah'a iftira yaxaraq haram edənlər, şübhəsiz ki, ziyana uğramışlar. Həqiqətən, onlar azmış, doğru yolu tapa bilməmişlər. (Ənam surəsi, 140)**

Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, insanların bir qismi halal və haram uydurub bu minvalla Allah'a qarşı böyük iftira atırlar. Halbuki, Allah insanlara həddi aşmamağı və gözəl olan təmiz şeyləri haram etməməyi əmr etmişdir:

**Ey iman gətirənlər! Allah'ın sizə halal buyurduğu pak nemətləri haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz! (Maidə surəsi 87)**

Lakin onların etdiklərinin qarşılığı da ayədə açıq şəkildə bildirilmiş, cəzalarını mütləq çəkəcəkləri xəbər verilmişdir. "Ənam" surəsində həmin şəxslərin heç bir məlumata əsaslanmadan etdikləri bu böyük zülm haqqında belə nümunə verilir:

**Bir cüt dəvə və bir cüt inək. De: "İki erkəyi, yoxsa iki dişini, yaxud da iki dişinin qarınlarındakı balaları haram buyurdu? Yoxsa Allah bunu sizə tövsiyə etdiyi zaman şahid idiniz? Heç bir biliyi olmadan insanları azdırmaq üçün Allah'a qarşı yalan uyduran şəxsdən daha zalım kim ola bilər? Həqiqətən, Allah zalım tayfanı doğru yola salmaz! (Ənam surəsi, 144)**

Ayələrdə də göründüyü kimi, insanların bir çoxu Allah adına hökm verməyə və bilmədikləri şeyləri dinə aid etməyə meyillidirlər. Bu səbəbdən, insan fitrətini ən yaxşı bilən Allah Quranda **"Diliniz yalana vərdiş etdiyi üçün: "Bu, halaldır, o, haramdır!" – deməyin, çünki Allah'a iftira yaxmış olursunuz" (Nəhl surəsi, 116)** ayəsi ilə insanları xəbərdar etmişdir. Bir başqa ayədə Allah belə buyurur:

**Sizə nə olmuşdur, necə mühakimə yürüdürsünüz? Heç düşünürsünüz?! Yoxsa sizin açıq-aşkar bir dəliliniz vardır?! Əgər doğru danışırsınızsa, kitabınızı gətirin (Saffat surəsi, 154-157)**

Tək hökm verən Allah'dır və Allah'ın hökmləri ayələrdə son dərəcə açıq və başa düşülən şəkildə verilmişdir. Peyğəmbərimizin (səv) sünnəsi də göz qabağındadır. Halal və haramlar bir-birindən açıq-aydın şəkildə ayrılmış və insanların tərəddüd etməsinə səbəb olan heç bir xüsusa da yol verilməmişdir. İnsanlar hər bir hökmün doğru olub-olmadığını Quran və Peyğəmbərimizin (səv) sünnəsinə baxıb anlaya bilərlər. Bu, Allah'ın insanlara verdiyi asanlıq və böyük rəhmətdir. Necə ki, Peyğəmbərimiz (səv) bir hədisində tək rəhbər və mənbə olaraq Qurana tabe olmağı belə ifadə etmişdir:

*Sizə üz tutduğunuz zaman əsla dələlətə düşməyəcəyiniz şeyi bu-*

*raxdım: Allah'ın kitabı Quran və Əhli-beytim. (Ramuz əl-əhadis 1-ci cild, səh. 250, no. 8)*

Quran endirildiyi gündən etibarən bütün dövr və zamanlara xitab edən bir kitabdır. Buna görə, Allah'ın tək hökm verici olduğunu və Allah adına hökm verənlərin aqibətindən bəhs edən ayələrin dövrümüzə baxan hikmətlərini diqqətlə düşünmək lazımdır. Quranda keçmiş cəmiyyətlərin malik olduğu düşüncələr, batil din və inancları ətraflı olaraq xəbər verilir. Lakin bu gün belə, Quranı və Peyğəmbərimizin (səv) sünnəsini tək mənbə olaraq qəbul etmədiyi üçün din adına yanlış hökm və zidd məntiqlər ortaya çıxaran insanlar vardır. Xüsusilə bəzi cəmiyyətlərdə yayılmış batil din anlayışından dolayı, insanlar Quranın və Peyğəmbərimizin (səv) sünnəsinin əvəzinə, ömrü boyu eşidib gördüklərini ölçü götürürlər. Bu batil anlayışı insanların gündəlik söhbətlərində belə görmək mümkündür. Məsələn, insanların bir çoxu yalan danışmaqdan çəkinmir, yalan dediklərində bunun Allah qatında cəzasının olacağını düşünmürlər və "bu qədəri günah deyildir" məntiqi ilə hərəkət edirlər. Yaxud da "şirin yalan" deyə ad uydurub bunun günah olmadığını deyirlər. Halbuki, bu, dinləri haqqında yanıldıqlarından sadəcə biridir. Çünki Allah Quranda yalan danışmağın haram olduğunu açıq şəkildə bildirmişdir. *(www.Kurandanbilgiler.com)*

Bundan başqa, yanındakı birisinə Allah'ın xoşlanmadığı bir işi gördürmək istəyən adam "sən et, günahı mənim boynuma" kimi ifadə işlədir. Ancaq Allah **"...Heç bir günahkar başqasının günahını daşımaz..." (Fatir surəsi, 18)** ayəsi ilə bu mövzudakı hökmünü bildirmişdir. Dolayısılə, Qurana tabe olan, Peyğəmbərimizin (səv) yolunu izləyən və Allah'ın ayələrinə iman edən insan Allahın bu hökmlərinə uyğun davranmalı, Quran və Peyğəmbərimizin (səv) sünnəsinə zidd olan heç bir söz və hərəkətə yol verməməlidir.

Ayrıca, Quranda öz uydurduğu batil dini yaşayan bu insanların elçiləri dini dəyişdirib yalan danışmaqla günahlandırdığı xəbər verilir. Ayələrdə belə buyurulur:

**Onlar öz içərilərindən özlərinə qorxudan bir peyğəmbər**

**gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: “Bu, yalançı bir sehrbazdır! Əcaba, o, tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da, çox təəccüblü bir şeydir”. Onların əyanları çıxıb gedərək belə dedilər: “Gedin öz tanrılarınıza möhkəm olun. İstənilən şey budur. Biz bunu sonuncu dində  də eşitməmişik. Bu, ancaq bir uydurmadır. Məgər Quran aramızdan onamı nazil olmuşdur?!” Doğrusu, onlar Mənim Quranım barədə şəkk-şübhə içindədirlər. Doğrusu, onlar hələ Mənim əzabımı dadmamışlar! (Sad surəsi, 4-8)**

Ayələrdə bəhsi keçən kəslər dinə bağlılıqlarından dolayı belə etdiklərini iddia edirlər. Bunun səbəbi Allah’ın Quranda bildirdiyi gerçək dini bilməmələridir. Allah’ın hökmlərini görməzlikdən gələn və ya şəxsi mənfəətlərinə zidd olduğu üçün bu hökmlərdən xoşlanmayıb yenisini çıxaranlar Allah’ı və endirdiyi kitabı tanımayan insanlardır.  Onlar bütün kainatı yoxdan var edən Rəbbimizin hər şeyə qadir olduğunu, elmi ilə hər yeri əhatə etdiyini, gizlinin gizlisini bildiyini təqdir etmirlər. Onların bildiyi sadəcə bir neçə xurafə və ön mühakimədən ibarətdir.

Halbuki, Allah insanlara belə buyurur:

**Rəbbindən sənə vəhy edilənə tabe ol.  Ondan başqa heç bir tanrı yoxdur. Müşriklərdən isə üz çevir! (Ənam surəsi, 106)**

# QURANI RƏHBƏR TUTMAQ

Quran qəti həqiqətlərdən ibarət bir hidayət rəhbəridir. Hər mövzu haqqında Allah'ın hz. Muhəmmədə (səv) vəhy etdiyi ən doğru bilgiləri ehtiva edir. Bu səbəbdən, həyatda sadəcə Quranı və Peyğəmbərimizin (səv) sünnəsini ölçü götürən insanlar Allah'ın rəhmətinə və hidayətə qovuşurlar. Quranın bu xüsusiyyəti bir ayədə belə xəbər verilir:

**Həqiqətən, bu Quran ən doğru yola yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir! (İsra surəsi, 9)**

**Bu (Quran) insanlar üçün bəsirət gözü, tam yəqinliklə inanan bir qövm üçün də hidayət və mərhəmətdir! (Casiyə surəsi, 20)**

Özünə rəhbər olaraq Quranı və Peyğəmbərimizin (səv) yolunu seçən bir insanın həyatı digər insanlardan çox fərqli olur. Məsələn, bu insan daxilən heç bir zaman sıxıntı, qorxu, əndişə və s. hiss etməz və ya çətinliyə düşərkən təlaş etməz. Çünki onun yol göstəricisi həmişə Allah'ın ayələri və Peyğəmbərimizin (səv) sünnəsidir. Allah'ın yaratdığı qədərə tabe olduğunu unutmadan Ona təslim olub güvənir. Rastına çıxan hər hadisəyə mütləq Allah'ın hökmləri ilə qarşılıq verir. Aldığı hər qərar, işlətdiyi hər kəlmə, yazdığı hər söz Quran əxlaqını yaşadığını əks etdirir. Bu səbəbdən də vicdanı həmişə təmiz olur və bunun verdiyi mənəvi hüzurla yaşayır. Allah Quran haqqında "Yunis" surəsində belə buyurur:

**Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana bir şəfa, möminlərə hidayət və mərhəmət gəlmişdir! (Yunis surəsi, 57)**

Allah Quranda doğru olanlarla yanlış olanları açıq şəkildə müəyyən etmişdir. Buna görə, nəfsi istəklərindən uzaq duran, Allah'ın hökmlərinə əməl edən vicdanlı insanlar doğru olanı asanlıqla tapırlar. Quran hər yaşda, hər səviyyədə olan insanın rahat anlayıb qavrayacağı hikmətli bir kitabdır. Quran hökmləri və ayələrdə keçən gözəl əxlaq son dərəcə aydın, başa düşülən və asandır. Allah'ın hidayət verdiyi hər bir səmimi insan Quranda yazılanları asan başa düşür və oxuduqlarını gözəl şəkildə tətbiq edir. Allah Quranın bu özəlliyini "Bəqərə" surəsində belə bildirir:

**İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran)... (Bəqərə surəsi, 185)**

Lakin təkcə Allah'dan qorxub çəkinənlər, Ona könüldən təslim olanlar və axirət həyatını dünya həyatına tərcih edənlər Qurandan öyüd alıb düşünürlər. Allah bir başqa ayədə belə buyurur:

**Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! Qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik). (Taha surəsi, 2-3)**

Bu mövzu, eyni zamanda, Quranın önəmli bir sirridir. Quranı anlamaq üçün böyük zəkaya və ya qabiliyyətə malik olmaq lazım deyil. Bunun üçün səmimi niyyətə, dərin imana və ixlasa sahib olmaq lazımdır. Çünki Allah səmimi qullarına doğru yolu göstərir və onların Qurandan faydalanmasını və xilas olmasını təmin edir. Quran bütün insanlara göndərilmiş bir kitabdır, lakin təkcə Allah'dan qorxan, axirətə iman edən möminlər üçün hidayət vəsiləsidir. Bununla bağlı ayələrdən bəziləri belədir:

**Qiyamət günü hər ümmətə özlərindən bir şahid göndərəcəyik. Səni də bunlara şahid gətirəcəyik. Biz**

**Quranı sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik! (Nəhl surəsi, 89)**

**De: "Ruhül-qüds onu sənin Rəbbindən iman gətirənlərə səbat vermək, müsəlmanları isə doğru yola yönəltmək və müjdə vermək üçün haqq olaraq nazil etmişdir!" (Nəhl surəsi, 102)**

**Bu hikmətli kitabın ayələridir. Yaxşı əməllər edənlərə bir hidayət və rəhmətdir. (Loğman surəsi, 2-3)**

**Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana bir şəfa, möminlərə hidayət və mərhəmət gəlmişdir! (Yunis surəsi, 57)**

Ayələrdə də bildirildiyi kimi, Quran bütün insanlara bir öyüd, çəkinən və mühsin olan müsəlmanlara da bir hidayət rəhbəridir. Böyük İslam mütəfəkkiri Bədiüzzaman Səid Nursi "Qurani-Hakim şüurlu insanlara imamdır, cin və insanlara mürşiddir, əhli-kamalə rəhbərdir, əhli-həqiqətə müəllimdir..." (Sözlər, səh. 185) sözləri ilə Quranın saleh qullara doğruluq rəhbəri olduğunu ifadə etmişdir.

# QURAN ALƏMLƏRƏ ÖYÜDDÜR

Quran Allah'ın bütün aləmlərə öyüd olaraq endirdiyi və hökmü qiyamətə qədər keçən, bənzərsiz hikmətə sahib bir kitabdır. Lakin səmimi olmayan və Qurana tabe olmamaq üçün bəhanə axtaran bəzi insanlar Quranın sadəcə müəyyən bir dövr üçün əsaslı olduğunu və yalnız ərəb cəmiyyətinə endirildiyini iddia edirlər. Buna görə, dayaz düşüncələri ilə Quranın bəzi hökmlərinin tətbiq edilməsinin lazım olmadığını düşünürlər.

Halbuki, Quranın hökmləri nazil olduğu gündən etibarən bütün dövrlər və bütün insanlar üçün etibarlıdır və bu hökmlərin əsaslılığı qiyamətə qədər davam edəcək. Quran insanlara öyüd verən, sonsuz axirət üçün onları xəbərdar edən və doğru yolu göstərən bir zikrdir. Allah'ın Quranın **"Şübhəsiz ki, o (Quran) sənin üçün və sənin qövmün üçün şərəfdir. Siz (ondan) mütləq sorğu-sual olunacaqsınız!" (Zuxruf surəsi, 44)** ayəsində bildirdiyi kimi, insanlar axirətdə Quranda yazılanlardan sorğu-sual ediləcəklər.

Quran ehtiva etdiyi hikmətləri ilə, keçmiş və gələcəyə dair verdiyi gerçək xəbərləri ilə, həmçinin qəfləti yox edən və insanlardan adət pərdəsini qaldıran üslubu ilə bənzərsiz bir kitabdır. Quranın bu təsiri vəhy edildiyi gündən qiyamətə qədər yaradılmış və yaradılacaq bütün insanlar üçün etibarlıdır. *(www.pismanolmadanonce.com)*

Bədiüzzaman Səid Nursi Qurandakı hikmətlərin etibarını heç bir zaman itirməyəcəyini belə ifadə edir:

*Min üç yüz əlli ildir ki, Qurani-Hakim bütün gerçəklərini kai-*

*nat çarşısında açıb sərgilədiyi halda, hər kəs, hər millət, hər ölkə onun cövhər və həqiqətlərindən almışdır və almağa davam edir. Halbuki, o vərdişlər, o bolluq, o böyük dəyişikliklər və zaman onun qiymətli həqiqətlərinə, gözəl üslubuna zərər verməmiş, qocaltmamış, qurutmamış, dəyərdən salmamış, gözəlliyini söndürməmişdir. Bu durum tək başına bir möcüzədir. (Sözlər, səh. 433)*

Quranın insanlara təsirindən də bəhs edən Bədiüzzaman digər sözlərində bunu belə bildirir:

*Quranın ən böyük möcüzələrindən biri də gəncliyini və təzəliyini qorumasıdır. Və o əsrdə endirilmiş kimi, hər əsrin ehtiyacını qarşılayan bir yönünün olmasıdır. (Sözlər, səh. 750)*

*Qurani-Hakim gerçək elmləri əhatə edən müqəddəs kitabdır və bütün əsrlərdə insanların bütün təbəqələrinə xitab edən, əzəli bir xütbədir. (Konfrans, səh. 11)*

*Quran haqq və həqiqət, doğruluq və hidayət və möhtəşəm fəsahət olduğuna görə, usandırmır, daima gəncliyini mühafizə etdiyi kimi, təzəliyini və səfasını da qoruyur. (Sözlər, səh. 378)*

Bədiüzzaman Quranın bənzərsiz bir kitab olduğunu və başqa heç bir mənbənin Quranın yerini almadığını da belə ifadə edir:

*Çünki bu həqiqət nöqtəsində, qətiyyən, Quranın misli yoxdur və ola bilməz. Heç bir şey bu böyük möcüzənin yerini tuta bilməz. (İman və küfr müvazinələri, səh. 67-68)*

*... O üslub hər kəsin xoşuna gəldiyi halda, heç kim təqlid edə bilmir. Keçən zaman o üslubu qocaltmır, həmişə gənc və təzədir. Elə bir müntəzəm nəsr və mənsur olan nəzmdir ki, həm uca və həm də lətifdir. Həm kahin, həm də qeybdən xəbər verənlərə qarşı gələcəkdən verdiyi xəbərlərlə möcüzəvi yönünü göstərir. Quran içindəki xəbərləri ilə, həmçinin keçmiş ümmətlərin irəlidəki durumuna və qəbir və axirətə dair bilgisi*

*ilə əhli-tarixə və insanlıq tarixinin alimlərinə qarşı möcüzə olduğunu göstərir. Quranın müqəddəs prinsipləri sosial elmləri alimlərinə və siyasət əhlinə qarşı az sözlə çox şey izah edir. Bəli, o Qurandan çıxan ən böyük nur o az sözlə çox şey izah etməyin sirridir. Çox mənaya gələn qısa cümlənin halı göstərir. Həm də İlahi elm və həqiqətlərin var olmasında məşğul olan təbəqəyə qarşı Qurandakı İlahi və müqəddəs həqiqətlərdəki sənəti göstərir və ya sənətin vücudunu hiss etdirir. Quran əhli-təriqətə və vəlilərə qarşı dəniz kimi daima dalğalanan ayələrinin əsrarındakı möcüzəsini göstərir və bunun kimi... Qırx təbəqədən hər təbəqəyə qarşı bir pəncərə açır və ecazını göstərir. Hətta yalnızca qulağı olan və bir dərəcə məna anlayan avam təbəqəyə qarşı, Quranın oxunması ilə başqa kitaba bənzəmədiyini qulaq sahibi təsdiq edir. (Məktubat, səh.181)*

Dünyadakı hər insanın ən birinci vəzifəsi Allah'a qarşı qulluq vəzifəsini yerinə yetirməkdir. Bu isə ancaq Allah'a səmimi qəlblə iman edib Quranı rəhbər tutmaqla mümkündür. Hər insan bu məsuliyyəti üzərinə almalı və qiyamətə qədər əsaslı olan Qurana bərk sarılmalıdır. Allah "Həşr" surəsində Quranın nə qədər üstün bir kitab olduğunu və onu rəhbər tutmağın nə qədər böyük məsuliyyət olduğunu bu örnəklə ifadə edir:

**Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, sən onun Allah'ın qorxusundan parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, düşünələr. (Həşr surəsi, 21)**

# QURAN FURQANDIR; DOĞRUNU YANLIŞDAN AYIRIR

Allah Quran ayələri ilə insanlara öyüd verir və onlara ən doğru olan hidayət yolunu göstərir. Quran bir insanın Allah'ı və İslam əxlaqını tanımaq və Allah'ın razı olacağı həyatı yaşamağın yollarını öyrənmək üçün üz tutacağı ən önəmli mənbə, doğru ilə yanlışı bir-birindən ayıran mütləq ölçüdür. **Bu səbəbdən, Quranın bir adı da Furqan, yəni doğrunu yanlışdan ayırandır.**

Dünyada hər insanın özünə xas inancı, məqsədi, baxış yönü, düşüncə və dəyərləri vardır. Demək olar ki, hər insanın doğru və yanlışları fərqlidir. Bunların bir çoxu insanların şəxsi mənfəətlərinə görə müəyyən edilmiş, ağıl və vicdana zidd inanc, mühakimə və dəyərlərdir. Halbuki, haqq və doğru olan sadəcə Allah'ın insanlar üçün bildirdiyi Quranın hökmləridir. Necə ki, Allah "Bəqərə" surəsində buyurur:

**...Düzgün yol yalnız Allah'ın göstərdiyi yoldur!.. (Bəqərə surəsi, 120)**

Dolayısilə, insanların öz ağlı ilə uydurduğu, öz mənfəətlərini hesablayıb təsbit etdiyi yol və məqsədlər insanları doğru olana və qurtuluşa aparmaz. İnsan dünyadakı yaradılış məqsədini, bu məqsədlərinə çatmaq üçün etməsi gərəkənləri, hal və hərəkətlərini, hüzurlu və xoşbəxt olmağın yollarını, ölüm həqiqətini və ölümdən sonra olanları ən doğrusu ilə Quran ayələrindən öyrənə bilər.

Bir insan Qurandan istifadə edib onun rəhbərliyində hidayət tap-

maq üçün Quranı gərəyi kimi oxumalıdır. Bir ayədə Allah belə buyurur:

**Verdiyimiz kitabı layiqincə oxuyanlar həmin kitaba iman gətirənlərdir, onu inkar edənlər isə özlərinə zərər yetirənlərdir. (Bəqərə surəsi, 121)**

Quranın gərəyi kimi oxunması isə səmimi şəkildə Allah'dan qorxub çəkinməklə və ayələrə möhkəm sarılmaqla mümkündür. Quran ayələrini yuxarıdakı ayədə tərif edildiyi kimi oxuyanlar hələ ən başdan Qurandakı hər hökmə təslim olur, Allah'ın əmr və tövsiyələrinə əməl etməyə ciddi şəkildə qərar verir.

Buna görə, Qurana tabe olan hər insan istənilən durumda və qarşılaşdığı hər hadisədə Quran hökmlərini və Peyğəmbərimizin (səv) sünnəsini rəhbər tutaraq qərar verir. Quran Furqan özəlliyi ilə möminin doğrunu yanlışdan ayırmasına və ən xeyirli qərarı verməsinə vəsilə olur. Belə ki, Allah bir ayəsində də buyurur:

**...Artıq doğruluq azğınlıqdan ayırd edildi... (Bəqərə surəsi, 256)**

Buna görə, iman edən hər insan Quran əxlaqı ilə cahiliyyə həyatı arasında orta yol axtarmağa çalışmaz, qəti və əmin şəkildə sadəcə Qurana, yəni doğru olana tabe olar.

Allah ayələrində möminlərə Qurandan möhkəm yapışmalarını belə buyurur:

**Buna görə də sən özünə vəhy olunandan yapış. Həqiqətən, sən düz yoldasan! Şübhəsiz ki, o (Quran) sənin üçün və sənin qövmün üçün şərəfdir. Siz (ondan) mütləq sorğu-sual olunacaqsınız! (Zuxruf surəsi, 43-44)**

Allah'ın vəhyindən uzaq durub inkarı seçənlər isə həm dünyada və həm də axirətdə sıxıntı və əzabı seçmişlər. Çünki Allah'ın Quranda əmr etdiyi həyat şəkli insan fitrətinə ən uyğun olandır. Bu səbəbdən, Quran hökmlərinə tabe olmayan insanlar yaradılışlarına uyğun olan həyatı tərk etdikləri üçün heç vaxt gerçək hüzur və

xoşbəxtliyi əldə edə bilməzlər. İnsanlar dünya və axirətdə qurtuluş və xoşbəxtliyi qazanmaq üçün həqiqi dini və Rəbbimizin əmrlərini Qurandan öyrənməli və Qurana tabe olmalıdırlar. Necə ki, Allah Quranda insanları belə xəbərdar edir:

Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allah'dan daha yaxşı hökm verə bilən kimdir?! (Maidə surəsi, 50)

**Məgər oxunmaqda olan kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi? Həqiqətən, bunda iman gətirən bir tayfa üçün həm mərhəmət, həm də öyüd-nəsihət vardır! (Ənkəbut surəsi, 51)**

Qurana tabe olan bir insanın təşxis və şərhləri, başqalarına verdiyi tövsiyələr, problemlərə tapdığı həll yolları Quran ayələri əsasında olur. Buna görə də həmişə haqq və doğru olmuş olur.

Qurana tabe olmayanların axirətdəki durumu isə ayələrdə belə xəbər verilir:

**Necə ola bilər ki, onlar Allah'ın dinindən başqa bir din axtarsınlar? Halbuki, göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar. (Ali-İmran surəsi, 83)**

**Kim İslamdan başqa bir din ardınca gedərsə, heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar! (Ali-İmran surəsi, 85)**

**Allah yanında din, əlbəttə, İslamdır. Kitab verilmiş şəxslər ancaq bildikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa başladılar. Allah'ın hökmlərini inkar edənlərlə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir. (Ali-İmran surəsi, 19)**

Budur, bu səbəbdən dolayı, insan Qurandan xaric hər cür batil inancdan xilas olmalı və özünə sadəcə Quran ayələrini və Peyğəmbərimizin (səv) sünnəsini örnək götürməlidir. Yoxsa axirətdə çox böyük peşmançılıq çəkər və şiddətli cəhənnəm əzabı ilə qarşılıq görər.

# QURANDA HƏR ŞEY AÇIQLANMIŞDIR

Allah insanların qaranlıqdan nura çıxması üçün hər mövzunun açıqlamasını və həllini Quranda bildirmişdir. "Nəhl" surəsində Rəbbimiz Quran haqqında belə buyurur:

**...Biz Quranı sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik! (Nəhl surəsi, 89)**

"Ənam" surəsində isə **"...Biz kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəklər" (Ənam surəsi, 38)** şəklində bildirmişdir. Quranda hər şey ən mükəmməl və ən hikmətli şəkildə açıqlanmışdır. Bu, Allah'ın qullarına olan rəhmətinin təzahürüdür.

Allah gerçək imanın şərtlərini, insanların dünya və axirət həyatlarına aid bir çox mövzunu, imanlı insanın hansı əxlaqa sahib olmasını və bir insana ömür boyu yol göstərən mövzuları Quranda ətraflı şəkildə bildirmişdir. Ayrıca, Allah Quran vasitəsilə bizə Özünü tanıdır və bütün kainatı yoxdan var etdiyini, ehtiyacsız olduğunu, bütün nöqsanlardan münəzzəh, hər şeydən xəbərdar və eşidən olduğunu və gizlinin gizlisini bildiyini açıqlayır.

Bununla yanaşı, Quranda Allah'ın rizası üçün edilən əməllər barədə, həmçinin insanların yaradılış məqsədi, ibadət formaları, gözəl əxlaq, fiziki və mənəvi yöndən sağlam olmağın yolları, çətin anlarda alınmalı tədbirlər və müxtəlif insan xarakterləri haqqında

ətraflı məlumat verilir. Bundan başqa, Quranda gündəlik həyata və sosial problemlərə dair bilgilər, elmi həqiqətlərə işarə edən ayələr vardır və qiyamət günü, cənnət və cəhənnəm mövzuları haqqında geniş məlumat verilmişdir. Yəni insanın həyatının hər anında ehtiyac duyduğu təməl bilgilərin hamısı Quranda vardır. Ayələrdə belə buyurulur:

**Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri təkrar-təkrar izah etdik ki, bəlkə, onlar pis əməllərindən çəkinsinlər, yaxud ibrət alsınlar! (Taha surəsi, 113)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkib onlara izah etdik. Lakin onların əksəriyyəti küfrdən başqa bir şeyə razı olmadı. (İsra surəsi, 89)**

**Biz bu Quranda insanlar üçün cürbəcür məsəllər çəkdik... (Kəhf surəsi, 54)**

Quranda insana Allah'ın hökmlərini qeyd-şərtsiz qəbul etməsinin, yalnız Allah'ı dost və vəkil etməsinin və həyatda tək məqsədinin Allah'ın rizası, rəhməti və cənnəti olmasının gərəkdiyi bildirilir. Quran ayələri əsasında yaşayan insan üçün tək ölçü Quran, izlənməsi gərəkən tək yol da Peyğəmbərimizin (səv) yolu olmalıdır. Quranda həqiqi müsəlmanların hər dövrdə cəmiyyətlərinin batil dinindən ayrılıb Allah'a və Onun əmrlərinə yönəldiklərindən bəhs edilir. Məsələn, Quranda cəmiyyətlərinin batil dinini qəbul etmədikləri üçün qınanan və ölüm təhdidi səbəbi ilə bir mağaraya sığınan saleh gənclərin durumu "Kəhf" qissəsində xəbər verilir (Kəhf surəsi, 13-16). Quranın başqa ayələrində də hz. Yusifin (əs) Allah'a və Onun əmrlərinə yönəlməsi iman edənlərə örnək olaraq verilir:

**... Mən Allah'a inanmayan və axirəti də inkar eləyən bir tayfanın dinini tərk etdim! Mən ata-babalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Bizə heç bir şeyi Allah'a şərik qoşmaq yaraşmaz... (Yusif surəsi, 37-38)**

Əlbəttə ki, cəmiyyətin batil dinindən ayrılmaq demək mənəvi

olaraq bu dinin mənsublarından qopmaq mənasındadır. Digər bir ifadə ilə desək, onların Allah'ın haqq dini olan İslamdan kənar ibadət şəkillərini, inanclarını, dəyər ölçülərini, düşüncələrini, əxlaq anlayışlarını, adət və ənənələrini, davranış formalarını və danışıq üslublarını mənimsəməmələri və özlərinə əsas mənbə olaraq Allah'ın vəhyini və Elçisinin həyatını ölçü götürmələridir. *www.sonpeygamberhzmuhammed.com)*

Allah Özünə qulluq edənlərə din olaraq İslamı bəyənib seçmiş, üz tutacaqları rəhbər olaraq Quranı endirmiş, Peyğəmbərimizin (səv) həyatını da nümunə etmişdir. **Tək doğru və haqq yol Allah'ın yoludur.** Allah'ın Quranda bildirdiyi yollardan başqaları batil və yanlışdır və ancaq xurafat, bidət və zənlərə əsaslanır. Dolayısilə, insan təkcə Quranı ölçü götürdüyü, Allah'ın əmrlərinə ciddi əməl etdiyi, Onun rizası olan saleh işləri gördüyü və yalnız Peyğəmbərimizi (səv) örnək aldığı təqdirdə, uca Rəbbimizin qatından gözəl qarşılıq uma bilər. Quranda bildirildiyi kimi, Allah'ın sözü ən uyğundur və ancaq Quranın və Peyğəmbərimizin (səv) sünnəsini rəhbər tutan insan ən doğru və ən həqiqi məlumatları əldə edə bilər. Allah'dan başqa hakim olmadığı Quranda belə xəbər verilir:

> **Allah sizə kitabı müfəssəl surətdə nazil etdiyi halda, mən Ondan başqasınımı özümə hakim istəməliyəm?! Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər. Sən şübhəyə düşənlərdən olma! Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, eşidəndir, biləndir! (Ənam surəsi, 114-115)**

Peyğəmbərimiz hz. Muhəmməd (səv) də qövmünə yeganə qaynağın Quran olduğunu söyləmişdir. Peyğəmbərimiz (səv) bəzi hədislərində müsəlmanlara bu öyüdləri vermişdir:

*"Qurana möhkəm sarılın və onu özünüzə rəhbər edin. Çünki o, aləmlərin Rəbbinin kəlamıdır. Ondandır və Ona dönər. (Sizi də Ona çəkər). (Ramuz əl-əhadis, 2-ci cild, səh 317 no 10)*

*Və yenə buyurdu: "Bu qəlblər dəmir kimi pas tutar". "Nə ilə pası*

*təmizlənər ya Rəsulullah?" –dedilər. Buyurdu ki: "Qurani-kərimi oxumaqla və ölümü xatırlamaqla". (Beyhəqi)*

*Yenə buyurdu: "Mən gedirəm və sizə iki vaiz buraxıram, həmişə sizə nəsihət verərlər. Biri danışaraq söylər, digəri susaraq: danışan vaiz Qurani-kərimdir, susan vaiz isə ölümdür. (İmam Qəzali, Kimyayi-səadət, səh. 141)*

*Allah'dan başqa İlah olmadığına və mənim Onun elçisi olduğuma şəhadət edirsiniz, elə deyilmi? Elə isə müjdələr olsun. Bu Quran elə bir ipdir ki, bir ucu Allah'ın əlində, bir ucu da sizin əlinizdədir. Ondan yapışın. Ondan sonra əsla dələlət və təhlükəyə düşməzsiniz. (Ramuz əl-əhadis, 1-ci cild, səh. 7, no 4)*

# QURAN ƏXLAQINI YAŞAMAQ ÇOX ASANDIR

Əvvəlki hissələrdə də deyildiyi kimi, Allah Quranı insanlara açıqlayan bir rəhbər olaraq göndərmiş, onunla ən asan və ən gözəl həyat tərzini bildirmişdir. Quran oxunduqda İslam dininə əməl etməyin çox asan olduğu görünür. Bu müjdə bizə **"...Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər..." (Bəqərə surəsi, 185)** ayəsi ilə xəbər verilmişdir.

Quran hər yaşa və hər mədəniyyətə malik insanın anlayacağı açıq bir öyüddür. Lakin əvvəlki hissələrdə də bəhs edildiyi kimi, bəziləri dini mənbəyindən öyrənmək əvəzinə, ətrafından eşitdiyi yanlış məlumatlara etibar edir, dini yaşamağın çətin olduğuna inanırlar. Bu əsassız qənaətin ən böyük səbəblərindən biri məlumatsızlıqdır.

Dövrümüzdə insanların bir qismi Quran ayələrində bildirilən həqiqətlərdən, axirət həyatının varlığından, sonsuz cəhənnəm əzabından, bənzərsiz cənnət nemətlərindən və Rəbbimizin müxtəlif mövzulardakı öyüd və tövsiyələrindən xəbərsiz yaşayır. Halbuki, Quran insanların oxuması, içindəki hikmətləri və həyatın əsl məqsədini öyrənməsi üçün endirilmişdir. Quranda Peyğəmbərimizə (səv) **"Və mənə Quran oxumaq (buyurulmuşdur)!" (Nəml surəsi, 92)** deməsi bildirilmişdir.

Quranı oxumaq və hər zaman Qurana tabe olmaq bir müsəlmanın ən önəmli vəzifələrindən biridir. Quranı qavratmaq Allah'ın əlindədir və ancaq Allah'ın hidayət verdiyi kəslər Quran ayələrini gerçək

mənası ilə anlayırlar. Allah Özünə könüldən yönələn səmimi qullarına hidayət nəsib edəcəyini bildirmişdir. *(www.Allahianmak.com)*

İnsanların Quranı anlamayacağı yalanını söyləyənlər bir çox insanın Quranı oxuyub Allah'a yönəlməsinə və Quran əxlaqına görə yaşamasına əngəl olmağı istəyirlər. Halbuki, Allah ayələrinin son dərəcə açıq və anlaşılan olduğunu Quranın bir çox yerində bəyan edir:

**Biz sənə açıq-aydın dəlillər göndərdik, onları yalnız fasiqlər inkar edərlər. (Bəqərə surəsi, 99)**

**Ey insanlar! Sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur (Quran) endirdik. (Nisa surəsi, 174)**

Allah'ın insanlara bəyənib seçdiyi Quran çox açıq və anlaşılan olmaqla yanaşı, içindəki hökmlərə əməl etmək də çox asandır. Allah ayələrdə Quran haqqında belə buyurur:

**Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! Qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik). (Taha surəsi, 2-3)**

Quran əxlaqı insan fitrətinə uyğun olan yeganə həyat şəklidir. İnsanı yoxdan var edən Allah onun nəyə ehtiyacının olduğunu, hansı ibadətlərə gücünün çatdığını və necə sağlam, hüzurlu və xoşbəxt olacağını ən yaxşı biləndir. Bu səbəbdən, Allah bir ayəsində heç kimə gücündən artıq vəzifə vermədiyini bildirir:

**Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. "Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə kömək et!" (Bəqərə surəsi, 286)**

Allah sonsuz mərhəmət və şəfqəti ilə ən rahat, ən hüzurlu və ən gözəl həyat şəklini Quranda bütün xüsusiyyətləri ilə bildirmişdir.

Məsələn, insan sevgi, şəfqət və mərhəmətdən xoşlanır. Özünə həmişə belə münasibət bəslənməsini istəyir. Zülm, əxlaqsızlıq, pislik kimi neqativ davranışlardan çəkinir və bunlara məruz qalmasını istəmir və ruhən bu hissləri duyması Allah'ın diləməsi ilə olur.

Allah insanları bu fitrət üzərində yaratmışdır. Dolayısilə, İslam əxlaqına uyğun həyat insanın zövq aldığı bir həyatdır. Allah bu həqiqəti "Rum" surəsində belə bildirir:

**Batildən haqqa tapınaraq üzünü Allah'ın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. Allah'ın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz. (Rum surəsi, 30)**

Qurandakı dinin insan üçün hər yöndən asan olduğu digər ayələrdə belə açıqlanır:

**... Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər... (Bəqərə surəsi, 185)**

**İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!.. (Kəhf surəsi, 88)**

**And olsun ki, Biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq… (Qəmər surəsi, 17)**

**... O, sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini kimi... (Həcc surəsi, 78)**

Bundan başqa, Peyğəmbərimizin (səv) sünnəsinin önəmli xüsusiyyətlərindən biri də son dərəcə asan əməl olunmasıdır. Quranı özünə rəhbər edən Rəsulullah (səv) qövmünə: "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin", -deyə öyüd vermişdir. (Ramuz əl-əhadis, 2-ci cild səh. 510)

Din əxlaqını yaşamağı əslən olduğu kimi asan göstərmək, insanların qəlbini Quran əxlaqına isindirmək, onlara Quranı və Peyğəmbərimizin (səv) sünnəsini öyrədib bunu tək yol göstərici halına gətirmək hər müsəlmanın önəmli vəzifəsidir.

# QURANA TABE OLMAQ İNSANLARIN ÜZƏRİNDƏKİ YÜKÜ QALDIRIR

İnsan Allah'ın diləməsi ilə dünyaya gələn, Onun verdiyi səhhətlə inkişaf edib böyüyən və həyatının hər anında Onun qorumasına möhtac olan bir varlıqdır. İnsanın dünyada tək dostu və yardımçısı, yeganə yol göstərəni daima diri olan və hər şeyi yaradan Allah'dır. Dünyadakı bütün insanların Allah'a möhtac olduğu bir ayədə belə bildirilir:

**Ey insanlar! Siz Allah'a möhtacsınız. Allah isə möhtac deyildir. O, şükrə layiqdir! (Fatir surəsi, 15)**

Quran bütün kainatın və canlı-cansız bütün məxluqatın yaradıcısı olan Allah'dan insanlara rəhmət olaraq göndərilmişdir. Lakin bəzi insanlar Quran əxlaqını yaşamamaq üçün özlərindən bəhanə uydururlar. Bunlardan biri də din əxlaqını yaşamağın onlara məhdudiyyət gətirəcəyi və istədikləri kimi yaşaya bilməyəcəkləri qənaətidir. Halbuki, bu, çox yanlış düşüncədir. Tam əksinə, din əxlaqının yaşanmadığı mühitlərdə insanlar çətinlik, sıxıntı və məhdudiyyətlə qarşılaşdığı halda, Quran əxlaqı insanlara çox rahat və hüzur dolu həyat təqdim edir. Quran insanların bir-birlərinə zor tətbiqini, çətin qanunları və gərəksiz prinsipləri ortadan qaldırır və onları sıxıntılardan qurtarıb hüzur içində yaşamağa yönəldir.

Necə ki, Allah, Elçisinin Quranı təbliğ etməklə insanların

üzərindən ağır yükü və zəncirləri götürdüyünü, onu qəbul edənlərin, ona dəstək olub yardım edənlərin və Quran ayələrində göstərilən yolu izləyənlərin xilas olacağını, yəni hüzura, xoşbəxtliyə və nemətlərə qovuşacağını belə bildirir:

**O kəslər ki, əllərindəki Tövratda və İncildə yazılmış gördükləri rəsula–ümmi peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər- məhz onlar nicat tapanlardır! (Əraf surəsi, 157)**

Buna qarşı, Quran əxlaqını yaşamayan cəmiyyətlərdə lazımsız qanunlarla insan həyatı çətinləşdirilir və bir çox problem həllini tapmır. İnsanlar öz prinsip və düşüncələrinə görə yeni qanun və qadağalar çıxarır, insanlara lazımsız məhdudiyyətlər qoyurlar. Məsələn, halal olan bəzi qidaları qadağan edir, bəzi hərəkətlərə qadağa qoyurlar. Hər cəmiyyətin öz mədəniyyət və mənfəətləri əsasında çıxardığı dilə gətirilməyən, lakin hamının bildiyi belə qanun və qaydalar vardır.

Hər şeydən əvvəl, bu cəmiyyətlərdə hər insan özünü başqalarına üstün xüsusiyyətlərə sahib imiş kimi göstərməyə çalışır. Dolayısilə, insanlar cəmiyyətin sərt qanunları və məhdudiyyətləri üzündən rahat deyib-gülə bilmir, istədiyi kimi hərəkət edə bilmir, qınanmaqdan və dedi-qodudan qorxurlar.

Bu insanlar Allah'ı tanımadığına, Ona güvənib təslim olmadığına və Quran əxlaqını yaşamadığına görə, bir çox şeydən qorxurlar. Məsələn, gələcək həyatın təminatından, yalnız qalmaqdan, uşaqlarının xəstələnməsindən, mal itkisindən, işlərinin pis getməsindən, yaxşı təhsil ala bilməməkdən, yaxşı ailə həyatı qura bilməməkdən, yaşlanmaqdan, qəzadan, şikəst olmaqdan, ölməkdən və daha bir çox şeydən qorxurlar. Buna görə, qayğı içində əndişə edirlər. Əlbəttə,

Quran əxlaqı yaşanmadığı təqdirdə, bu qorxuların yaşanması qaçılmazdır. Çünki din əxlaqından uzaq yaşayan insanlar hər şeyin Allah'ın diləməsi ilə gerçəkləşdiyini və bir qədərlə yaradıldığını bilmirlər. Yaxşı, yaxud pis görünən hər hadisənin imtahan olaraq yaradıldığını, insanlara ruzi verənin və bütün nemət və gözəlliklərin gerçək sahibinin Allah olduğunu düşünmürlər. Buna görə də belə insanların təşkil etdiyi cəmiyyətlərə gərginlik, hüzursuzluq və bədbəxtlik hakimdir.

Quran əxlaqının yaşandığı cəmiyyətdə isə belə mənfi halların olmamasının səbəbi müsəlmanların gözəl əxlaqıdır. Çünki onlar təvəkküllü, səbirli, şəfqətli, mərhəmətli, sevgi dolu, təvazökar və qənaətkar insanlardır. Allah'ın dinini yaşadıqlarına görə rahat və hüzurludurlar. Quranda əmr olunduğu kimi, Allah'dan başqasından qorxmazlar. Allah'ın rizasını hər şeydən üstün tuturlar. Verilən hər nemətin və gözəlliyin Allah'ın lütfü olduğunu və hər çatışmazlıq və yoxluğun isə bir imtahan olduğunu bilirlər. Çətin anlarda qorxmurlar və təmkinli davranırlar.

Quranda halal və haramlar açıq şəkildə bildirilmiş, Allah'ın razı olacağı əxlaq isə təfsilatı ilə açıqlanmışdır. Bu səbəbdən, möminlərin həyatında Qurandan və Peyğəmbərimizin (səv) sünnəsindən kənar heç bir qanun yoxdur. Quranda insanların yaradılışına uyğun, onlara güvənlik və hüzur verən, vicdanlarının rahat olmasına vəsilə olan hökmlər verilir. Peyğəmbərimizin (səv) həyatı da bu hökmlərin tətbiqi mövzusunda ən gözəl nümunədir. Allah insanların üzərindəki ağır yükü yüngülləşdirmək istədiyini ayədə belə açıqlayır:

> **Allah sizə bildirmək, sizdən əvvəlkilərin getdiyi yolları sizə göstərmək və tövbələrinizi qəbul etmək istər. Allah biləndir, hikmət sahibidir! Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Öz nəfsinə uyanlar isə sizi böyük bir əyriliklə sapdırmaq istəyirlər. Allah istər ki, üzərinizdə olanı yüngülləşdirsin, çünki insan zəif yaradılmışdır. (Nisa surəsi, 26-28)**

Bədiüzzaman Səid Nursi də Qurana tabe olan və Allah'ın əmr etdiyi imanı yaşayan insanın dünyada ikən mənəvi bir cənnəti yaşayacağını belə deyir:

*Budur, bu insan aləmini qaranlıqlar içində gördüyüm zaman qəlbim, ruhum və ağlımla bərabər, bütün mənəvi duyğularım, bəlkə də vücudumun bütün zərrələri fəryad ilə ağlamağa hazır ikən, birdən Qurandan gələn nur və iman qüvvəti o sapqınlıq gözlüyünü qırdı, başıma bir göz verdi. Gördüm ki: Cənabi-Haqqın Adil ismi Hakim (iş və əmrləri hikmətli və səhvsiz olan) bürcündə, Rəhman ismi Kərim (hər şeyin yaxşısı; şərəfli və izzətli; möhtərəm, comərd) bürcündə, Rəhim (mərhəmətli, rəhmli) ismi Ğafir (mərhəmət edən, günahları ən çox bağışlayan) bürcündə, yəni mənasında, Bais (göndərən, səbəb olan; yenidən yaradan; ölüləri təkrar dirildən; peyğəmbər göndərən) ismi Varis (miras sahibi) bürcündə, Mühyi (dirildən) ismi Mühsin (ehsan edən) bürcündə, Rəbb ismi Malik (sahib; malı əlində tutan) bürcündə bir günəş kimi doğdular. O qaranlıq və içində çoxlu aləm olan insan aləminin hamısını birdən aydınlatdılar, şənləndirdilər. Cəhənnəm durumlarını dağıdıb, nurani axirət aləmindən pəncərələr açıb o pərişan insan dünyasına nur saçdılar. Kainatın çox kiçik parçaları sayı qədər: "Allah'a həmd olsun, Allah'a şükürlər olsun", - dedim. Eynəl-yəqin (göz ilə görmək dərəcəsində görüb, müşahidə edib bilmək) gördüm ki, imanda mənəvi bir cənnət və sapqınlıqda mənəvi bir cəhənnəm bu dünyada da vardır; sağlam və qəti olaraq bildim. (İman və küfr müvazinələri, səh. 9)*

Allah insanları din əxlaqına uyğun olmayan bir sistemdə əsla hüzur tapmayacaqları şəkildə yaratmışdır. Axirətdə isə mömin və inkarçılar arasındakı bu fərq daha da kəskinləşir. Qurana tabe olmayan insanlar hesab günündə bədbəxt olduğu halda, iman edənlər tərifi mümkün olmayan xoşbəxtlik içində olacaqlar:

**(Qiyamət) gəldiyi gün (Allah'ın) izni olmadan heç kəs danışa bilməz. (O gün) insanların bir qismi bədbəxt, bir qismi isə xoşbəxt olacaqdır! (Hud surəsi, 105)**

# ALLAH İNSANLARI QURANLA XƏBƏRDAR EDİB QORXUDUR

Quranın ən önəmli özəlliklərindən biri də insanları sonsuz cəhənnəm əzabına qarşı xəbərdar edən ayələr ehtiva etməsidir. Xəbərdar edilən insanlar artıq doğru və yanlışın, yaxşı və pisin nə olduğunu tam öyrənmiş olur, axirətdə də bu məlumatlardan məsuliyyət daşıyırlar. Allah Quranın bu xüsusiyyətini ayələrdə belə bildirir:

**Öz dərgahından gələcək şiddətli bir əzabla qorxutmaq, yaxşı əməllər edən möminlərə isə gözəl mükafata nail olacaqları ilə müjdə vermək üçün onu doğru-düzgün olaraq endirdi. (Kəhf surəsi, 2)**

**Biz (Quranı) sənin dilinlə asan etdik ki, onunla ancaq Allah'dan qorxub pis əməllərdən çəkinənlərə müjdə verəsən və inadkar bir camaatı qorxudasan. (Məryəm surəsi, 97)**

Peyğəmbərimiz (səv) də **"...Bu Quran mənə sizi və ona yetişəcək kimsələri xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu" (Ənam surəsi, 19)** ayəsində bildirildiyi kimi, yetişə bildiyi hər kəsi Quranla xəbərdar etmək vəzifəsini üzərinə götürmüşdür. Allah bir başqa ayədə Peyğəmbərimizə (səv) insanları xəbərdar etmək üçün Quranı vəhy etdiyini belə buyurur:

**Şəhərlərin anası (olan Məkkə) əhlini və onun ətrafın-**

**dakıları haqqında heç bir şübhə olmayan toplanış günü ilə qorxutmağın üçün, beləcə, sənə ərəbcə Quran vəhy etdik. (Axirətdə insanların) bir qismi cənnətdə, bir qismi isə cəhənnəmdə olacaqdır! (Şura surəsi, 7)**

Ayələrdən də göründüyü kimi, Allah Quranda ölümü, mələklərin insanların canını necə alacağını, onların necə həşr olunacağını, qiyamət gününü, o gün insanların başına gələcək olayları, hesab gününü, sorğu-sualı və bundan sonra insanların dəstə-dəstə cənnət və cəhənnəmə necə girəcəklərini, o gün çəkilən acı və iztirabları, maddi və mənəvi olaraq yaşanan qorxulu əzabı və cənnətin sonsuz gözəllikdəki nemətlərini təfsilatı ilə izah edir və bütün bunlarla insanları axirət gününə qarşı xəbərdar edir. *(www.Kurandacennet.com)*

Hətta bir çox ayədə cəhənnəm əhlinin öz aralarındakı söhbəti haqqında məlumat verilir, oradakı mühit və yaşayış təsvir olunur və insanların iztiraba baxmayaraq, bir-biri ilə çəkişməyə davam etdiyi açıqlanır. Məsələn, bəzi ayələrdə cəhənnəm əhli arasında keçən danışıq belə xəbər verilir:

**İnsanları onlara əzab gələcəyi günlə qorxut. O gün zalımlar: “Ey Rəbbimiz! Bizə bir az möhlət ver. Biz Sənin dəvətini qəbul edər və peyğəmbərlərə tabe olarıq!” -deyərlər. Bəs, əvvəlcə, sizə heç bir zaval toxunmayacağı barədə and içməmişdiniz?! (İbrahim surəsi, 44)**

**(Allah) buyuracaqdır: “Mənim hüzurumda mübahisə etməyin. Mən sizə bu əzabı bildirmişdim. Mənim hüzurumda söz güləşdirməyin. Mən bəndələrə zülm edən deyiləm!” O gün Biz cəhənnəmə: “Doldunmu?” – deyəcək, o isə: “Yenə varmı?” – deyə cavab verəcəkdir. (Qaf surəsi, 28-30)**

**Kafir olanlar dedilər: “Biz nə bu Qurana, nə də ondan əvvəlkilərə inanırıq!” Kaş sən o zalımları Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları və acizlərin özlərini yuxarı tutanlara: “Əgər siz olmasaydınız, biz**

**mütləq mömin olardıq!" – dedikləri zaman görəydin. (Səba surəsi, 31)**

Quranla xəbərdar edilmiş, lakin üz çevirmiş insanlar əzab gəldiyi zaman nə etsələr də, heç bir xilas yolu olmayacaqdır. Ölüm mələklərini gördükdə tövbə etmələri, peşman olmaları bir fayda verməyəcək. Çünki bu insanlara dünya həyatında xəbərdaredicilər gəlmişdir, lakin onlar inkar yolunu seçmişdir. Allah Quranda belə buyurur:

**Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki edirdik!" "Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi qədər ömür vermədikmi?! Hələ sizə qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz!" (Fatir surəsi, 37)**

Allah'ın dünyada müəyyən etdiyi müddət ərzində vicdanına tabe olub hər anını Allah'ın rizasına və rəhmətinə uyğun şəkildə yaşayan möminlərə isə sonsuz axirət həyatında mükafat veriləcək. Ölüm mələkləri ilə qarşılaşdıqdan sonra canları gözəlliklə alınan möminlərin dəstə-dəstə cənnətə girəcəyi və cənnət gözətçiləri tərəfindən qarşılanacağı haqqında ayələrdə belə xəbər verilir:

**Onlar altında çaylar axan Ədn cənnətlərinə daxil olacaqlar. Orada onların istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır! O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: "Sizə salam olsun! Etdiyiniz əməllərə görə cənnətə daxil olun!" – deyərlər. (Nəhl surəsi, 31-32)**

Allah'ın üstün və şərəfli məqama ucaltdığı möminlərin cənnətdəki söhbəti də Quranda təfərrüatlı şəkildə verilmişdir. Möminlər gözəllikdən, sevgi və hüzurdan bəhs edən söhbətlərində Allah'ın şanını ucaldarlar. Bu söhbətlərdən verilən bəzi nümunələr belədir:

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allah'a həmd olsun. Həqiqətən, Rəbbimiz bağışlayandır, qədirbiləndir! Elə bir Rəbb ki, Öz lütfü ilə bizi (əbədi qalacağımız) iqamətgahda yerləşdirdi. Orada bizə nə bir yorğunluq üz verəcək, nə bir məşəqqət toxunacaqdır!" (Fatir surəsi, 34-35)**

**...Bizə verdiyi vədini yerinə yetirmiş və bizi bu yerə varis etmiş Allah'a həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. (Dünyada yaxşı) əməllər edənlərin mükafatı necə də gözəldir!.. (Zumər surəsi, 74)**

**...Biz bundan əvvəl ailəmiz içində olarkən qorxardıq. Artıq Allah bizə mərhəmət buyurub bizi cəhənnəm əzabından qorudu. Biz bundan əvvəl Ona ibadət edirdik. Şübhəsiz ki, O, kərəm sahibidir, rəhm edəndir! (Tur surəsi, 26-28)**

Bu ayələrdən də göründüyü kimi, möminlər bu xoş aqibətin ancaq Allah'ın diləməsi və rəhməti ilə olduğunun şüurundadırlar. Əgər Allah sonsuz lütf edib qorumasaydı, asanlıqla yoldan aza biləcəklərini anlamışlar. Odur ki, bunları qavrayan möminlər eyni dünyada olduğu kimi, cənnətdə də Allah'a davamlı şükür edəcəklər.

# MÖMİNLƏR QURAN ƏXLAQINI NÖQSANSIZ YAŞAYIRLAR

Möminlərin həyatda tək ölçüsü Quran ayələri və Peyğəmbərimizin (səv) sünnəsidir. Onlar həyatlarının sonuna kimi Allah'ın əmr və qadağalarına ciddi riayət edir, yalnız Allah'dan qorxur, heç kimdən mədət ummur, təlaşa, ümidsizliyə və qorxuya düşmürlər. Heç kimin qınağından qorxmurlar. Hadisələrə Quran və Peyğəmbərimizin (səv) sünnəsinə uyğun reaksiya verirlər. Bolluq zamanlarında olduğu kimi, çətin vaxtlarda da Quran əxlaqına uyğun davranırlar. Çünki bilirlər ki, Allah nemət verdiyi kimi, dilədiyində bunları xeyir və hikmətlə azalda da bilər. Hər hadisənin nəfsin tərbiyə olunması və kamilləşməsi üçün yaradılmış bir imtahan olduğunun fərqindədirlər.

Lakin Qurandan qafil yaşayan və tam iman etməyənlər bütün həyatını insanların razılığına görə qururlar. Bütün həyat fəlsəfələri, qanunları və anlayışları Qurana ziddiyyət təşkil edir. Quranı və Peyğəmbərimizin (səv) sünnəsini yol göstərici kimi qəbul etmədiklərinə görə, İslam əxlaqından uzaq bir çox batil inanc, adət və ibadət şəkilləri formalaşdırırlar.

Hz. Şüeybin qövmünə xitabından bəhs edən **"...Ey qövmüm! Məgər mənim əşirətim sizə Allah'dan da əzizdir ki, Onu unudub saymırsınız?.." (Hud surəsi, 92)** ayəsində olduğu kimi, bu insanlar Allah'ı unudurlar. Allah'ın hökmlərinin yerinə hər cür batil inanc və qanunlara sanki İlahi hökm kimi tabe olurlar. Qurandakı həqiqətləri görsələr də, bu batil inanclarından heç cür vaz keçmirlər. Halal və

haram anlayışları yanlış düşüncələrinə, mənsub olduğu cəmiyyətin dəyər ölçülərinə və atalarından öyrəndiklərinə bağlı olaraq dəyişir. Quran hökmlərinin yerinə insanların qənaətinə dəyər verirlər.

Bu insanların həyata baxışları Quranda **"...Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getməkdəyik!.." (Zuxruf surəsi, 23)** ayəsində bildirilir.

İnsanlar dünya və axirətdə xilas olmaq üçün atalarının və ya çevrələrinin əməllərinə deyil, Qurana üz tutmalıdırlar. Quran Allah'ın heç dəyişməmiş sözüdür. Peyğəmbərimizin (səv) həyatı boyu göstərdiyi gözəl əxlaq isə iman edənlər üçün ən gözəl nümunədir.

# HZ. MUHƏMMƏDİN (SƏV) TƏK RƏHBƏRİ QURAN İDİ

Allah Peyğəmbərimiz hz. Muhəmmədi (səv) seçmiş və ona hökmü qiyamətə qədər keçən Quranı vəhy etmişdir. Hz. Muhəmməddən (səv) sonra bir peyğəmbər göndərilməyəcəyi yenə Quranda bildirilmişdir.

Peyğəmbərimiz (səv) Qurana tabe olmuş, insanlara da Quran oxumalarını və yalnız Quranın hökmlərini əsas almalarını nəsihət etmişdir. Ayələrdə belə buyurulur:

**De: "Mən sizə demirəm ki, mənim yanımda Allah'ın xəzinələri vardır. Mən qeybi bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən yalnız özümə gələn vəhyə tabe oluram". De: "Kor görənlə bir olarmı? Məgər düşünmürsünüz?" (Ənam surəsi, 50)**

**Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah hökm verənə qədər səbir et. O, hökm verənlərin ən yaxşısıdır! (Yunis surəsi, 109)**

Peyğəmbərimiz (səv) səhabələrinə də Quran oxumalarını və Qurandan kənar hökm verməmələrini nəsihət etmişdir:

*Sənə Allah'dan qorxmağı tövsiyə edirəm. Çünki o qorxu bütün işlərin zinətidir. Sənə Quran oxumağı, Allah'ı zikr etməyi tövsiyə edirəm. Çünki o, sənin səmada anılmana səbəbdir. Yer üzündə isə sənin üçün bir nurdur. (Hz. Əbubəkr (rə) / Ramuz əl-əhadis, Əhməd Ziyaüddin, Gümüşxan evi, 1-ci cild, səh 157, 4-cü maddə)*

*İnsanlara nə olur ki, Allah'ın kitabında olmayan şərtləri qoşurlar. Cənabi-Haqqın kitabında olmayan şərt yüz də olsa batildir. Allah'ın hökmü əməl edilməyə daha layiq, şərti isə daha sağlamdır. Haqq azad edənindir. (Hz. Aişə (rə) / Ramuz əl-əhadis, 1-ci cild, səh. 82, no 11)*

*Quranı daşıyan İslamın bayrağını daşıyan kimidir. Kim ona ikram edərsə, Allah'a ikram etmiş olar. Hər kim də onlara xəyanət edərsə, Əziz və Cəlil olan Allah'ın lənəti onun üzərinə olsun. (Hz. Əbubəkr (rə) / Ramuz əl-əhadis, 1-ci cild, səh 272, no 10)*

Hədislərdən göründüyü kimi, Peyğəmbərimiz (səv) möminlərin bir işi edib-etməməyini istəyərkən yalnız Quranı rəhbər tutmuşdur. Onun hər sözü Qurana əsaslanır. Necə ki, Peyğəmbərimiz (səv) haqqında ayədə **"...Mən ancaq Rəbbimdən mənə vəhy edilənlərə tabe oluram. Bu, Rəbbiniz tərəfindən aşkar dəlillərdir, həm də iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir" (Əraf surəsi, 203)** şəklində buyurulur. Məsələn, qövmü qadınlar haqqında Peyğəmbərimizin (səv) hökm verməsini istəmişdir. Buna qarşı ayədə **"...Onlar barəsində fitvanı sizə Allah verir..." (Nisa surəsi, 127)** cavabı verilir. Eyni şəkildə, ondan həmçinin mirasla bağlı hökm istəmişdirlər. Bu barədə isə **"Atası və övladı olmayan şəxsin mirası haqqında Allah sizə fitva verir" (Nisa surəsi, 176)** ayəsi nazil olmuşdur. Bir başqa Quran ayəsində bildirildiyi kimi, ona: **"Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir" (Yunis surəsi, 15)** – deyənlərə hz. Muhəmmədin (səv) belə dediyi xəbər verilir:

> **Mən onu özbaşına dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsan, böyük günün əzabından qorxuram. (Yunis surəsi, 15)**

Dolayısilə, Rəsulullahın (səv) sünnəsi Quranın həyatda tətbiq edilməsidir. Buna görə, Allah Peyğəmbərimizə (səv) itaəti imanın bir şərti olaraq bildirir və bir ayədə peyğəmbərə itaətin Allah'a itaət olduğunu buyurur (Nisa surəsi, 80). Peyğəmbərimizin (səv) sünnəsinə əməl edən, əslində, Quranın hökmlərini yerinə yetirmiş

olur. Çünki Peyğəmbərimizin (səv) hər hərəkəti, hər qərarı və hər danışığı Qurana əsaslanmışdır. Peyğəmbərimiz (səv) bir hədisində belə buyurub:

*Mənə itaət edən Allah'a itaət etmiş olur. Mənə üsyan edən də Allah'a üsyan etmiş olur. Əmrə itaət edən mənə itaət etmiş, əmrə üsyan edən də mənə üsyan etmiş deməkdir. (Ramuz əl-əhadis, Əbu Hüreyrə (rə), 2-ci cild, səh. 405, 5-ci maddə)*

Peyğəmbərimiz (səv) Quranda bildirildiyi kimi, möminlərin sıxıntıya düşməsi ağırına gedən, onlara şəfqətli olan (Tövbə surəsi, 128), insanlara yaxşılığı əmr edən və onları ağır yükdən və buxovdan azad edən (Əraf surəsi, 157), Allah'dan bir lütf olan, insanları pis yoldan çəkindirən, həmçinin hikmət və kitabı öyrədən yüksək əxlaqlı insandır (Ali-İmran surəsi, 164).

Bir insan Allah'ın razı olduğu həqiqi bir müsəlman olmaq üçün Quranın hökmlərinə tabe olmalı, hz. Muhəmmədin (səv) sünnəsini anlayıb qəbul etməli və bu hökmlərə həyatının hər anında əməl etməlidir. Allah Peyğəmbərimizin (səv) həyatını Quranda ətraflı şəkildə açıqlamışdır. Buna görə də Peyğəmbərimizin (səv) həyatını incələmək, onun üstün əxlaqını örnək almaq hər bir müsəlmanın hədəfi olmalıdır. Allah Quranda peyğəmbərlərin iman edənlər üçün gözəl nümunə olduğunu belə bildirir:

**Həqiqətən, Allah'ın Rəsulu Allah'a, qiyamət gününə ümid bəsləyənlər və Allah'ı çox zikr edənlər üçün gözəl örnəkdir! (Əhzab surəsi, 21)**

# NÜMUNƏVİ QURAN NƏSLİ YETİŞDİRMƏYİN ƏHƏMİYYƏTİ

Bir çox insanlar özlərinə başqa birisini örnək alır və ona bənzəməyə çalışırlar. Hətta danışıq və hərəkətlərinə qədər o şəxsi təqlid edir, həyat tərzinə pərəstiş edirlər. Lakin bu nümunələrin ya hamısı bir çox yöndən əksik olur, ya da tamamilə insanları yanlış yola sürükləyən əxlaq və anlayışa sahib olur. İnsanlar üçün əxlaq və davranış baxımından ən gözəl nümunə Peyğəmbərimiz hz. Muhəmmədir (səv). Peyğəmbərimizin (səv) üstün əxlaq və davranışının qaynağı isə Qurandır. Peyğəmbərimiz (səv) və ətrafındakı möminlər Quranı özlərinə rəhbər tutan, Quran əxlaqı ilə əxlaqlanan, Allah'dan şiddətlə qorxan və Onu dərin sevgi ilə sevən vicdanlı insanlardır. Allah iman edənləri **"Yer üzünün varisləri" (Ənam surəsi, 165)** vəsfi ilə şərəfləndirmiş, onlara həm bu dünyada, həm də axirətdə izzət və şərəf vermişdir. Peyğəmbərimizin (səv) idarəsində olan cəmiyyətlərdə hüzur, xoşbəxtlik, güvənlik, ədalət, sevgi, dostluq, qardaşlıq, şəfqət, mərhəmət və fədakarlıq kimi əxlaqi ünsürlər ən mükəmməl səviyyədə yaşanmışdır. Necə ki, bu dövr tarixdə "Səadət əsri" olaraq adlandırılmışdır. Allah ixlaslı möminlərin dünya həyatında alacağı qarşılığı belə müjdələmişdir:

**Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 97)**

Bu səbədən, Quran və Peyğəmbərimizin (səv) sünnəsi əsasında

düşünən, hökm edən, danışan və qərar verən bir nəslin yetişməsi son dərəcə önəmlidir. Peyğəmbərlərin əxlaqını özünə örnək götürən, sadəcə Allah'ın rizasını hədəf alan bu saleh müsəlman cəmiyyətinin xüsusiyyətləri Quran ayələrində təfsilatı ilə açıqlanmışdır. Onların bəzi özəllikləri bunlardır:

- Yalnız Allah'a qulluq edirlər (Fatihə surəsi, 5)
- Allah'ı hər şeydən çox və ürəkdən sevirlər (Bəqərə surəsi, 165)
- Allah'a təslim olublar (Tövbə surəsi, 51)
- Allah'a qarşı aciz olduqlarını bilirlər (Cin surəsi, 22)
- Allah'dan qorxurlar, Onun bəyənmədiyi əxlaqdan şiddətlə çəkinirlər (Rəd surəsi, 21)
- Hər şərt və vəziyyətdə Allah'a şükür edirlər (Bəqərə surəsi, 172)
- Anlayışlı, sevimli və əfvedicidirlər (Hicr surəsi, 85)
- Təvazökardırlar (Furqan surəsi, 63)
- Mərhəmətli və həlim xasiyyətlidirlər (Tövbə surəsi, 128)
- Yaxşılığı əmr edib pislikdən çəkindirməyə çalışırlar. (Ali-İmran surəsi, 104)
- Birlik və bərabərlik tərəfdarıdırlar (Səf surəsi, 4)
- Günahkarlara əsla arxa çıxmır, daim haqq və ədaləti müdafiə edirlər (Nisa surəsi, 105 və 58)
- Heç kimin haqqını yemirlər (Şüəra surəsi, 184)
- Sözlərinə sadiqdirlər (Bəqərə surəsi, 177)
- Boş şeylərdən üz çevirir, həmişə faydalı iş görürlər (Furqan surəsi, 72)
- Səbirlidirlər, çətinlikdən qəti qorxmazlar (Ali-İmran surəsi, 146, Hud surəsi, 55)
- Güvənilən və cəsurdurlar (Yunis surəsi, 71)
- Dinlərinə bağlıdırlar (Əraf surəsi, 89)
- Fikirlərini zorla qəbul etdirməzlər, qarşılıqlı danışıb izah edərlər (Nəhl surəsi, 125)
- Gördükləri işlərə görə mənfəət güdmürlər (Şura surəsi, 23)
- Haqqı söyləməkdən çəkinmirlər (Maidə surəsi, 54)
- Sənətdən və estetikadan zövq alırlar

- Təəssüb və xurafata qarşıdırlar

Yuxarıdakı vəsfləri daşıyan bir nəsil hazırda dünyanın bir çox yerində yaşanan əxlaqi degenerasiyanın, savaşların, bəlaların, hiylə və saxtakarlıqların, sıxıntıların, zülmlərin və səfalətin yox olub yerini sülh, güvənlik, ədalət, hüzur və qardaşlığın almasının təminatı olacaq. Çünki Quran əxlaqı bütün insanlığa maddi və mənəvi zənginlik, gözəllik və aydınlıq gətirir. Quran əxlaqının yayılması ilə yer üzündəki bütün problemlər qısa bir zamanda həllini tapar.

Allah Quranda **“Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!” (Bəqərə surəsi, 208)** şəklində buyurub insanları Quran əxlaqını yaşamağa çağırır. *(www.Kuranveislam.com)*

Cəmiyyətlərinin batil adətlərinin və öyrəndikləri yanlış bilgilərin ardınca getməyib dinin gerçək qaynağı olan Quran və sünnəyə tabe olanlar, ayədə də bildirildiyi kimi, İslama girmiş olacaqlar. Əks təqdirdə, bir çox batil inanclara malik, öz nəfs və istəkləri ilə yaşayan, kiçik hədəflərin ardınca gedən, xurafatçı, qorxaq, özünə güvənməyən, dar düşüncəli, cahil, dinə inanmayıb mistik xəyallarla inancını qorumağa çalışan, ağılsız, bəsirətsiz, yanlış mühakiməli, din əxlaqına uyğun olmayan prinsiplərin altında əzilən, əxlaqsızlıqda hədd tanımayan cəmiyyətlər meydana gələcəkdir. Əlbəttə, belə şəxslərdən ibarət bir cəmiyyətdə anlayışlı, aydın, mədəni, hüzurlu və güvənli bir həyatın yaşanmayacağı açıq bir həqiqətdir.

Bu mövzuda Bədiüzzaman Səid Nursi belə deyir:

*İslam millətinin səadəti yalnız və yalnız İslamın əsasları ilə ola bilər. Yoxsa ədalət məhv olar, əmniyyət alt-üst olar. Əxlaqsızlıq və pis duyğular üstün gələr. İş yalançı və yaltaqların əlində qalar. (Xütbeyi-Şamiyə, səh. 79)*

Buna görə də doğrudan iman edən hər insan özünə səmimi bir iman nəsib etdiyi, özünü hidayətə çatdırdığı, Peyğəmbərimizi (səv) tanımaqla şərəfləndirdiyi üçün Allah’a şükür etməlidir. Bunun ən gözəl şükürünü Quranla xəbər verilən əxlaqa tam tabe olmaqla və Peyğəmbərimizin (səv) təqib etdiyi yolu izləməklə göstərməlidir.

Əks halda, Allah'a qarşı nankor davranmış olar. Bunun qarşılığı isə axirətdə böyük əzab ola bilər.

## HZ. MEHDİ (ƏS) AXIRZAMANDA İNSANLARIN KAMİLLƏŞMƏSİNƏ VƏ ÜSTÜN ƏXLAQLI OLMASINA VƏSİLƏ OLACAQ

**APARICI:** *...Bu arada Həsən bəy soruşur: "Axşamınız xeyir. Bu gün ilk dəfə oxuduğum bir hədisdə hz. Mehdinin (əs) insanların ağıl, əxlaq və şəxsiyyət olaraq kamilləşməsinə vəsilə olacağı ilə bağlı ifadə şövqümü çox artırdı. İmam Baqir (əs) belə buyurmuşdur: "Qaimimiz hz. Mehdi qiyam edincə əlini qullarının başının üzərinə qoyar, beləcə, ağıllarını bir araya toplayar, inkişaflarını kamala çatdırar. Allah düşüncə və hisslərini gücləndirər. Ta ki, özləri ilə Qaim hz. Mehdi arasında heç bir əngəl qalmaz. (Yəvmül-Xəlas, səh. 269)" Bu hədisi açıqlaya bilərsinizmi?"*

**ADNAN OKTAR**: *Bəli, hz. Mehdinin (əs) sevgisi, imanı, şövqü və səmimiyyəti insanlara yaxşı təsir edəcək. Hal alacaqlar, yəni onunla yaxın əlaqədə olan şəxslər ondan təsirlənib gözəl əxlaqı, sevgini, şəfqəti, insancıl düşünməyi tam qavrayacaqlar. Qurana, Peyğəmbərimizin (səv) sünnəsinə tabe olmağı ruhlarına yaxşıca yerləşdirəcəklər, bu məna çıxır, inşaAllah.*

*(Adnan Oktarın 9 yanvar, 2010 tarixli Kral Karadeniz və Kanal 9 reportajından)*

# NƏTİCƏ

İnsanların böyük hissəsi sual verdikdə müsəlman olduqlarını deyirlər. Ancaq bunu deyən insanların bir çoxu İslamın haqq kitabı olan Quranı bir dəfə olsun belə oxumayıblar. Halbuki, bu kitab boyu bəhs edildiyi kimi, müqəddəs kitabımız Quran Allah'ın bizə Özünü tanıtdığı, dünya həyatının gerçək məqsədini, axirəti, gözəl əxlaqın necə olduğunu açıqlayan vəhyidir.

Bir insanın Allah'ın ondan nə istədiyini bilmədən din haqqında şifahi şəkildə eşitdiyi məlumatlara qane olub yaşaması ağıl və vicdana uyğun deyildir. Allah Quranı oxumaq üçün endirdiyini "İsra" surəsində belə bildirir:

**Biz (Quranı) haqq olaraq nazil etdik, o da haqq olaraq nazil oldu. Səni də yalnız müjdə verən və qorxudan sifəti ilə göndərdik. İnsanlara aramla oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb göndərdik. Biz onu tədriclə, nazil etdik. (İsra surəsi, 105-106)**

Quran bütün kitablardan üstündür və içindəki məlumatlar gəlib-keçmiş bütün bilgilərin üzərindədir. Quranı səmimi niyyətlə oxuyan hər insan ayələrdə bildirilən möcüzələri, bənzərsiz hikmət və üstünlüyü görərək hidayətə çatır. İnsanlar inanıb-inanmasalar da, Quran aləmlərə öyüddür və Rəbbimizin möcüzəsidir. Ayələrdə belə buyurulur:

**De: "İstər inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elm verilmiş kimsələr yanlarında (Quran)**

**oxunduğu zaman üzüstə səcdəyə qapanar. Və: "Rəbbimiz pakdır, müqəddəsdir! Rəbbimizin əmri mütləq yerinə yetəcəkdir!" – deyərlər. Onlar üzüstə səcdəyə qapanıb ağlayar, onların itaətini daha da artırar. (İsra surəsi, 107-109)**

Bir insan yaşından asılı olmayaraq, heç bir zaman Quranı oxuyub anlaması və içində yazılanlara əməl etməsi üçün gec qalmış sayılmaz. Buna görə də insan şeytanın "bu günə qədər etməmisən, bundan sonra etməyinin faydası yoxdur" kimi vəsvəsəsinə aldanmamalı, buna bənzər təlqinlərə qarşı da diqqətli olmalıdır. Allah hər bir insanı son halından məsul tutacaqdır. Əgər insan həqiqətləri görüb Allah'a və Qurana yönəlməklə Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün yaşamağa başlayarsa, Allah keçmiş günahlarının tövbəsini qəbul edər.

Elə isə bir gün öləcəyini və axirətdə sonsuz həyata başlayacağını bilən, cənnət və cəhənnəmin varlığından xəbərdar olan hər insan ağıl və vicdanla düşünüb həyatını necə yaşayacağı haqqında qəti qərar verməlidir. Ağıl və vicdana uyğun olan isə insanın ömrünü Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün keçirməsi və Onun əmrinə tabe olmasıdır. Allah Quranda belə buyurur:

**Rəbbinin kitabından sənə vəhy olunanı oxu. Onun sözlərini heç kəs dəyişdirə bilməz. (Allah'dan) başqa heç bir sığınacaq tapa bilməzsən! (Kəhf surəsi, 27)**

# ƏLAVƏ BÖLMƏ TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3)Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin mil-

yonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə

gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana

gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə,

zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana

gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsu-

siyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin

əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətir-

dikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dün-

yanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir.

Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə möv-

cud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya

tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən

mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan

yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə,

təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız,  şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaş-

dıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən!**
**(Bəqərə surəsi, 32)**